11_27 IYUl-QARA.qxd 3/18/2025 9:32 PM Page 1

UNİKAL

№11 (2241) 19 mart 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Ataşkəsi pozaraq "sülhə hazır olan" İrəvanın yeni çirkin oyunu



Səh.2

## "Bütün dünyaya sübut etdik, bu, bizim tarixi və hüquqi torpağımızdır"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.*
*Dövlətimizin başçısı sakinlərlə görüşüb, söhbət etdi.*
*Prezident İlham Əliyev: Salaməleyküm. Xoş gördük, bayramınız mübarək olsun!*
*Sakinlər: Salam, xoş gəlmisiniz, Sizin də bayramınız mübarək olsun, Ramazan bayramınız da mübarək.*
*Prezident İlham Əliyev: Necəsiniz?*
*Sakinlər: Xoş gəlmisiniz, cənab Prezident, Sizinlə həmsöhbət olmaq bizim üçün şərəfdir. Xoş gəlmisiniz.*
*Prezident İlham Əliyev: Siz də xoş gəlmisiniz. Nə vaxt gəlmisiniz?*
*Kişi sakin: Biz mart ayının əvvəlindən - 3-dən buradayıq.*

Səh.3

## "Sülh müqaviləsinin imzalanmasına mane olmaq istəyən qüvvələr var"



*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, son günlər Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasından, bu atışmaların daha böyük toqquşmalara səbəb...*

Səh.4

## Monopolistlərin soyğunçuluğu davam edir



*Son zamanlar ölkədə kartofun qiymətində sürətli artım müşahidə olunur. Yerli KİV yazır ki, hazırda pərakəndə satış məntəqələrində xaricdən idxal olunan kartofun 1 kiloqramı 1 manat 50 qəpiyə satılır. Müqayisə üçün bildirək ki, bu ilin yanvar ayında idxal kartofun orta satış qiyməti 1 manat olub və son...*

Səh.8

## Cəzaçəkmə müəssisələrində sıxlıq azaldılır



*Azərbaycanda cəzaçəkmə müəssisələrində saxlanma şəraitinin beynəlxalq standartlara uyğun təmin edilməsi, məhkum və həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının qorunması istiqamətində qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilir. Dövlətimiz azadlıqdan məhrum edildiyi dövrdə belə məhkumların hüquqlarının...*

Səh.11

11_27 IYUI-QARA.qxd 3/18/2025 9:37 PM Page 2



# "Efirdə özümə baxanda əsəbiləşirdim" - Rəqqasə Fatimə




***Rəqqasə Fatimə Fətəliyeva bir müddət əvvəl keçirdiyi üzgərmə əməliyyatından söz açıb.***

"Unikal" olay.az-a istinadən xəbər verir ki, bu haqda sənətçi instaqram səhifəsində açdığı canlı yayımda danışıb.

Fətəliyeva bildirib ki, üzündən kompleks keçirdiyi üçün bıçaq altına uzanıb: "Bəli, mənim kompleksim var idi. Buxaq nahiyyəmdən və üzümün aşağı hissələrində problem var idi. O mənə kompleks yaradırdı. Bu da zamanında üzümə etdirdiyim gellərə görə olub. O gellər üzümdə lazımsız piylər əmələ gətirib. Estetik olaraq mənə xoş deyil idi. Efirdə özümə baxanda əsəbiləşirdim. Buna görə də üzümü savadlı doktorumuza tutdum və əməliyyat olundum. Mən əməliyyatdan çox razıyam. Tam nəticəni isə mən 3 aydan sonra alacağam".

# "Sevillə Sevinc qısa geyinir, onları oğluma almazdım" - Xatirə İslam

***Müğənni Xatirə İslam "Böyük oğlum olsaydı, Aygün Bayramovanı alardım" açıqlamasına aydınlıq gətirib.***



"Unikal" xəbər verir ki, "Afaqla onlarla" verilişində qonaq olan Xatirə əvvəlcə bu sözlərini xatırlamayıb: "Sevil Sevincdən xoşum gəlir. Böyük oğlum olsaydı, onları almazdım. Onlar qısa geyinirlər. İstəyirəm, gəlinim evdə otursun, qəşəng yemək bişirsin, çay dəmləsin. Yeyim, bir az kökəlim. Əkizlər o qədər gözəldilər, həmişə göz önündədirlər. Qısqanc adamam. Kimi demişəm? Xatırlamıram? Aygün Bayramova? Doğrudan? Yox, o yemək bişirən adama oxşamır, acından ölərdim. Sağ olsun. Yaxşı muğamlar oxusun".

# "Siz ərinizin başında qoz qırırsınız" - Afət Fərmanqızıdan ittiham

***Müğənni Afət Fərmanqızı paylaşımı ilə gündəm olub. İfaçı instaqram hesabında onu tənqid edən izləyicilərə od püskürüb.***



A.Fərmanqızı həmkarını da bu paylaşımda ağır tənqid edib: "Dostlar, qorxduğumuz başımıza gəldi. İki gün öncə klip çəkilişində rejissor bildirdi ki, ssenariyə uyğun olaraq burada üzük taxmaq məqamı olmalıdır. Biz oradan-buradan aktyor tapmayaq deyə, yoldaşımdan xahiş etdim. O da çox etiraz etdi. Amma başa saldım ki siman görünməyəcək. Onsuz da səni hamı görüb, tanıyır. Çətinliklə də olsa, razılaşdırdıq. Klip yayımlanarkən izləyicilər başa düşüb ki, bu, mənim həyat yoldaşımdır. Altda yazırlar ki, bunlar bir-birinə nələr dedi, kişi onu necə qəbul edir? Ay qız, siz ərinizin başında qoz qırırsınız. Hələ mən qoz qırmamışam. Kimin evində dava olmayıb? Səvəndə, öpəndə yaxşıdır, ağzıma gələni deyəndə pis? Ər mənim, kef mənim. Sevərəm də, söyərəm də. Əgər belə obyektivsinizsə, o zaman sizinlə razı olaram ki, başqasının ərindən iki bic doğan, keçmişdə itə oxşayan küçə adamı bu gün o adamın pulu ilə özünü düzəldib yığdıran, nə əxlaqda, nə gözəllikdə kişinin arvadının əlinə su tökməyə belə yaramayana yazın. Yazın ki, başqasının ailəsini dağıtmaq ayıb deyilmi? Ona yazsanız, mən də durub deyərəm ki, bunlar haqlı yazır".




# "Sən kimsən məni parodiya edirsən?" - Müşviq Şahverdiyev

***Aktyor Müşviq Şahverdiyev mərhum Xalq artisti İlhamə Quliyevanı parodiya etdikdən sonra onunla ilk görüşündən danışıb.***

Aktyor "İzzət şou"da qonaq olarkən mərhum sənətçinin ona hədə-qorxu gəldiyini bildirib: "Bir dəfə Xalq artisti İlhamə Quliyeva məni gördü və soruşdu ki, "Məni sən parodiya etmisən?". Elə bildim deyəcək ki, nə gözəl eləmisən oğul. Nə gözəl aktyorsan sən. Həvəslə cavab verdim ki, bəli, mən etmişəm. Dedi ki, "Qələt eləmisən. Sən kimsən məni parodiya edirsən? Başına bir oyun açaram, verilişini də bağlatdıraram. Get o uzuna da ("Tək səbir"in aparıcısı Həsən) de ki, başınıza oyun açaram". Mən də tez təşvişə düşən adamam. Oradan qaçaraq çıxdım və kanala girən kimi dedim ki, uşaqlar, İlhamə xanım bizdən şikayət edib, verilişimizi bağlayacaqlar".

# Dəniz Əsədovaya 6 aylıq cəza verildi

***Böhtan atmaqda təqsirləndirilən müğənni Dəniz Əsədova ilə bağlı məhkəmə prosesi keçirilib.***



"Unikal" APA-ya istinadən xəbər verir ki, bu gün Binəqədi Rayon Məhkəməsində hakim Samir Nəsibovun sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub.

Qərara əsasən, Dəniz Əsədova barəsində 6 ay müddətində azadlığın məhdudlaşdırılması cəzası təyin olunub.

Qeyd edək ki, Dəniz Əsədova ilə bağlı Cinayət Məcəlləsinin 147.2-ci (Böhtan, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə məhkəməyə müraciət olunub.

Binəqədi Rayon Məhkəməsinin qərarı ilə onun barəsində axtarış elan edilib. Hazırda Binəqədi Rayon Məhkəməsinin icraatında Dəniz Əsədova ilə bağlı xüsusi ittiham qaydasında daha 3 şikayət var.

# Lətifə Soyuöz küçədən qızıl tapdı

***Müğənni Lətifə Soyuöz küçədən qızıl tapıb. "Unikal" xəbər verir ki, sənətçi bu hada özü məlumat yayıb. O bildirib ki, Fəvvarələr meydanında gəzərkən qızıl sırğa tapıb.***



Lətifə sırğanın digər tayını göstərən sahibinə onu qaytaracağını deyib.

11_27 IYUI-QARA.qxd 3/18/2025 9:38 PM Page 3



# Monopolistlərin soyğunçuluğu davam edir

## Rəqabət Məcəlləsi qüvvəyə minib, inhisarçılıqla mübarizə aparacaq qurum yaradılıb, bəs süni bahalaşmaya nə vaxt son qoyulacaq?

***Son zamanlar ölkədə kartofun qiymətində sürətli artım müşahidə olunur. Yerli KİV yazır ki, hazırda pərakəndə satış məntəqələrində xaricdən idxal olunan kartofun 1 kiloqramı 1 manat 50 qəpiyə satılır.***

Müqayisə üçün bildirək ki, bu ilin yanvar ayında idxal kartofun orta satış qiyməti 1 manat olub və son bir ay ərzində kartofun satış qiyməti 50% bahalanıb.

Qeyd edək ki, ötən il Azərbaycana xarici ölkələrdən 142 min 797 ton kartof gətirilib və idxal edilən kartofun orta gömrük dəyəri 46 qəpik (27 sent) olub. Son bir ildə idxal edilən kartofun gömrük dəyərində heç bir dəyişiklik olmayıb.

"Yeni avaz"ın məlumatına görə, Azərbaycana kartof ən çox İrandan, Gürcüstandan və Türkiyədən gətirilir. Belə ki, ötən il İrandan Azərbaycana 66 min 436 ton kartof gətirilib və bu ölkədən gətirilən kartofun bir kiloqramının orta gömrük dəyəri 44 qəpik (26 sent) olub.

Gürcüstandan 23 min 939 ton kartof gətirilib və bu ölkədən gətirilən kartofun bir kiloqramının orta gömrük dəyəri 56 qəpik (33 sent) təşkil edib.

Türkiyədən gətirilən kartofun miqdarı isə 10 min 399 ton olub və bu ölkədən gətirilən kartofun bir kiloqramının orta gömrük dəyəri də 44 qəpik (26 sent) olub.

Diqqət çəkən məqam isə ondan ibarətdir ki, hazırda Azərbaycanın kartof idxal etdiyi ölkələrdə də kartofun pərakəndə satış qiyməti Azərbaycan ilə müqayisədə aşağıdır.

### 9 manata gətirilir, ancaq 33 manata satılır!

Ümumiyyətlə, son vaxtlar Azərbaycana gətirilən bir çox məhsulların idxal qiymətləri ilə market qiymətləri arasında kəskin fərq aydın hiss edilir, bir çox hallarda isə bu fərq uçurum həddindədir. Məsələn, ötən il xaricdən ölkəmizə 6 milyon 560,5 min dollar dəyərində 1 227,8 ton kakao tozu gətirilib.

Açıqlanan rəsmi məlumatlardan belə aydınlaşır ki, xaricdən idxal olunan kakao tozunun 1 kiloqramının orta gömrük dəyəri 9,1 manat (5,3 dollar) olub.

Qeyd edək ki, idxal olunan kakao tozunun təxminən yarısı - 645,6 tonu Türkiyənin payına düşüb. Türkiyədən idxal olunan kakao tozunun 1 kiloqramının gömrük dəyəri isə 10,8 manat (6,3 dollar) olub.

Ancaq absurd olan orasıdır ki, bu ilin yanvar ayında idxal olunan kakao tozunun 1 kiloqramının orta satış qiyməti marketlərdə nə az, nə çox düz 33,4 manat təşkil edib!

### Regionda ən bahalı mal əti satılan üç ölkədən biriyik!

Bir müddət öncə isə məlum olmuşdu ki, ötən ilin ilk 11 ayı ərzində Azərbaycana xaricdən ümumi dəyəri 3 milyon 415,7 min dollar olan 891,5 ton sümüklü təzə mal əti idxal edilib.

"Yeni avaz"ın rəsmi məlumatlara istinadən apardığı hesablamadan belə aydınlaşırdı ki, xaricdən gətirilən təzə mal ətinin 1 kiloqramının orta gömrük dəyəri 3,8 dollar (6,5 manat) olub.

Qeyd edək ki, təzə mal əti Azərbaycana Belarusdan gətirilib.

Bundan başqa ötən ilin ilk 11 ayında Azərbaycana 9 milyon 204 min dollar dəyərində 2 min 603 ton dondurulmuş sümüklü mal əti də idxal edilib. Əsasən Ukrayna (2 361,7 ton), Moldova (140 ton) və Belarusdan (99 ton) idxal edilən dondurulmuş sümüklü mal ətinin 1 kiloqramının orta gömrük dəyəri 3,5 dollar (6 manat) olub.

Məlumat üçün bildirək ki, xaricdən idxal olunan mal ətindən fərqli olaraq yerli istehsal olan ətin qiyməti ölkənin aparıcı supermarketlərində dəfələrlə baha satılır. Üstəlik, ölkəyə gətirilən mal ətinin idxal qiyməti ilə marketlərdəki satış qiyməti arasında da təxminən 3 dəfə fərq var.

Elə bunun nəticəsidir ki, region ölkələrində mal ətinin ən baha satıldığı üç ölkədən biriyik. Belə ki, sözügedən məhsulun 1 kiloqramı:

Türkiyədə - 18,2 dollar;
Ermənistanda - 11,8 dollar;
Azərbaycanda - 9,7 dollar;
İranda - 9,6 dollar;
Gürcüstanda - 9 dollar;
Özbəkistanda - 8,1 dollar;
Moldovada - 7,6 dollar;
Rusiyada - 7 dollar;
Qazaxıstanda - 6,9 dollar;
Belarusda - 6,9 dollar;
Ukraynada isə 6,3 dollar təşkil edir.

Bir sözlə, Azərbaycanda son illərdə, demək olar, bütün məhsullarda, o cümlədən qidaların qiymətində bahalaşma açıq-aydın hiss edilir. Bəli, inflyasiya bütün dünyada gedən prosesdir, lakin müşahidələr göstərir ki, qlobal bazarlarda hansısa məhsul bahalaşdıqda Azərbaycanda da qiymət artımı müşahidə edildiyi halda, ucuzlaşma baş verdikdə bu, yerli bazara təsir etmir. Nəticədə ortaya belə bir sadə həqiqət çıxır: ölkəmizdəki bahalaşma bir çox hallarda süni xarakter daşıyır və inhisarçıların maraqlarına xidmət edir.

Yeri gəlmişkən, mütəxəssislər də mütəmadi olaraq bu nüansa xüsusilə diqqət çəkirlər. Məsələn, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, "çox qəribədir ki, Azərbaycandakı tədarükçü şirkətlər dünya bazarında qiymətlərin qalxmasına anındaca reaksiya verir. Ancaq qiymətlər düşəndə susurlar. Gizlətmək lazım deyil ki, bu günə kimi daxili bazarda bir çox məhsulların qiyməti müəyyən qruplar tərəfindən idarə edilib. İnanmaq istərdik ki, yeni qanunun (Rəqabət Məcəlləsi nəzərdə tutulur - red.) qəbulundan sonra vəziyyət yaxşıya doğru dəyişəcək. Bazarda sağlam rəqabət mühiti formalaşacaq"...

Rəqabət Məcəlləsi qüvvəyə minib, anti-inhisar qurumu yaradılıb, ancaq....

Xatırladaq ki, ötən ilin avqustunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - Xidmət) əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb. Bununla bağlı Prezident Fərman imzalayıb.

Fərmanla müəyyən edilib ki, Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Həmin Fərmandan öncə - 2023-cü ilin dekabrında Rəqabət Məcəlləsi Milli Məclisdə, nəhayət ki, qəbul olunmuş, ardınca - 2024-cü il iyulun 1-dən isə Azərbaycanda rəqabət mühitini tənzimləyən həmin sənəd rəsmən qüvvəyə minmişdi.

Bütün bunların fonunda cəmiyyət böyük gözləntilər içərisindədir. İnsanlar ölkədə ifrat həddə çatmış inhisarlaşmanın qarşısının alınması istiqamətində ciddi addımların atılacağına, bunun da Azərbaycan iqtisadiyyatının daha da güclənməsinə, nəticə etibarilə isə vətəndaşın sosial güzəranının yüksəlməsinə gətirib çıxaracağına ümid bəsləyirlər. İqtisadçı millət vəkili Vüqar Bayramovun dediyi kimi, inhisara qarşı mübarizədə mərkəzi icra hakimiyyəti orqanının yaradılması islahatların daha da dərinləşməsinə institutsional dəstək kimi xarakterizə olunmalıdır: "Rəqabət Məcəlləsinin qəbulundan sonra inhisara qarşı mübarizənin daha da gücləndirilməsi və rəqabətin müdafiəsi daha prioritetləşib. Bir sıra region və əksər inkişaf etmiş ölkələrdə, o cümlədən, qonşu Gürcüstanda rəqabətin müdafiəsinə xüsusi qurum nəzarət edir. Bu baxımdan, xidmətin mərkəzi icra qurumuna çevrilməsi həm beynəlxalq institutsional praktikaya uyğundur, həm də yeni qanunverici aktların qəbulundan sonra vacib qərardır.

Göründüyü kimi, yeni qurumun fəaliyyət istiqamətləri həm rəqabətin daha yaxından müdafiəsi, həm də antiinhisar fəaliyyəti baxımından vacib sahələrdir".

İndi qalır inhisarçılıqla mübarizə istiqamətində iki mühüm, hətta həlledici addımın



atılmasından sonra bunun bəhrəsini görmək... Düzdür, Rəqabət Məcəlləsinin qəbulundan və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılmasından çox vaxt keçməyib. Ona görə də həm adı çəkilən sənədin keyfiyyətli icrası və sözügedən qurumun effektiv fəaliyyəti barədə danışmaq üçün bir qədər tezdir (elə ekspertlər də bildirirlər ki, haqqında danışılan məcəllənin Azərbaycanda rəqabət mühitini necə dəyişəcəyini qiymətləndirmək üçün azı 1 il gözləmək yaxşı olardı). Lakin istənilən halda görünən odur ki, hökumətin ölkədə inhisarlaşmanı minimuma endirmək və onun həm yerli iqtisadiyyatın inkişafına, həm də vətəndaşların sosial rifahına mənfi təsirlərini azaltmaq istiqamətindəki iradəsi fonunda monopolistlər hələ də öz mövqelərini qoruyub-saxlamaqda israrlıdırlar. Elə gündən-günə daha qabarıq şəkildə görünən qiymət soyğunçuluğunun səbəbini də ilk növbədə burada axtarmaq lazımdır.

Hər bir halda inanaq ki, bir yandan Rəqabət Məcəlləsinin qəbulu, digər yandan Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılması sonda öz səmərəsini verəcək, yerli bazar yalnız kimlərinsə daha çox qazanmaq ehtirasından qurtulub dövlətin və vətəndaşın mənafelərinə xidmət prinsipi əsasında formalaşacaq.

***Toğrul Əliyev***

№11 (2241) 19 mart 2025-ci il

UNIKAL

# Paşinyan sülh sazişini qısa müddətdə imzalamaq istəyir, amma...

## Onun telefon diplomatiyasının ünvanları sülh gündəmi üzrə razılaşdırılmamış məsələlər ətrafında Ermənistanın Moskva, Paris və Tehrandan dəstək gözləntilərini ifadə edir

***Məlum olduğu kimi, bu günlərdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov sülh sazişinin mətni üzrə danışıqlar prosesinin yekunlaşdığını açıqlayıb. Ermənistan tərəfi də artıq danışıqlar prosesinin hansı xətt üzrə aparılacağı ilə bağlı razılaşmanın əldə olunduğunu bəyan edib.***

Onun ardınca bir sıra böyük dövlətlərin rəsmiləri, eləcə də regionda münaqişənin tamamilə başa çatmasında maraqlı olan təşkilatlar da bu razılaşmanı təqdir etdiklərini bildirdilər.

Siyasi şərhçi, Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov deyib ki, Nikol Paşinyan Azərbaycan və Ermənistan arasında "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş" layihəsinin mətni üzrə işlərin yekunlaşmasından sonra Vladimir Putin, Emmanuel Makron və Məsud Pezeşkiana tələsik məlumatlar verdi. Onun sözlərinə görə, Paşinyanın telefon diplomatiyasının ünvanları sülh gündəmi üzrə razılaşdırılmamış məsələlər ətrafında Ermənistanın Moskva, Paris və Tehrandan dəstək gözləntilərini ifadə edir: "Bu, Ermənistanın Donald Tramp administrasiyasından dəstək ala bilməməsinə verilən refleksdir. Eyni vaxtda, Azərbaycanla sərhəddə erməni qoşunlarının fəallaşması sülhə olan ümidlərə baxmayaraq İrəvanın inandığı vədlər əsasında hərbi kampaniya üçün fürsətcilliyini göstərir. Azərbaycan strateji müttəfiqi Türkiyə ilə birlikdə diplomatiya və digər resurslarını ABŞ-Rusiya anlaşmalarının doğura biləcəyi regional nəticələrə kökləyəcək. Çünki əksər regionlar Tramp-Putin danışıqları və mümkün sövdələşmələrin ağırlığını hiss edir. Böyüyən və qlobal oyunçu statusu qazanan Türkiyə hər yerdə maraqları olan bir aktor kimi daha diqqətli yanaşmalara məcburdur. Lakin Rusiya



A.Kərimov onu da qeyd edib ki, Nikol Paşinyanın Ermənistanı qorumaq instinktləri Yaxın Şərqdə məğlub olan İranın Cənubi Qafqazda aktiv siyasət yürütməsinə nail olmağa çalışmağa əsaslanır. "Lakin Paşinyanın Rusiya-İran-Fransa üçbucağı yarada bilmək ehtimalları yoxdur. Buna baxmayaraq, Azərbaycan sülh gündəmindəki yanaşmalarını daha geniş bir ölçü ilə yenidən prioritetləşdirəcək. Azərbaycanın Rusiya, ABŞ, İranla danışıqlar əsnasında Ermənistanın təhlükəsizlik zəmanətlərini Türkiyə ilə birlikdə yaratmaq səylərini aydınlaşdıracaq. Bu, Zəngəzur dəhlizinin açılması üçün yaranmış geosiyasi məqamlarda açar ola bilər. Ancaq Cənubi Qafqazda ABŞ ilə Rusiyanın bir-birlərinin təsirlərini cilovlamaq üçün əvvəlki illərdəki kəskin rəqabəti indi konstruktiv sövdələşmələrlə əvəzlənir. Bu, yeni konyunktura yaradılması və onun nüfuz dairələrinə bölünməsi səylərinin bir hissəsidir. Azərbaycan həmin konyunkturada belə çox güclü əl olacaq, lakin Fransa və İranın Ermənistana ilə sövdələşmənin bəndləri İrana qarşı effektiv təzyiq kimi daha aktuallıq kəsb edir. Üstəlik, bu yaxınlarda Çinin Tayvan ətrafında hərbi hərəkətliliyini artırması Vaşinqtonla Pekin arasındakı mümkün güzəşt sahələrini müəyyən etməyə imkan verir. Bununla belə Vaşinqton-Pekin əlaqələrində xeyli mübahisələr var və ehtimalla Tramp Çinin Cənubi Qafqazda da profilini gücləndirməsi faktı ilə barışmaq istəmir. Deməli, ABŞ ilə Çinin digər rəqabət meydanı Cənubi Qafqazdır və məsələ burasındadır ki, bu iki gücdən heç biri hazırda Ermənistana dəstəkdən uzaq qaçırlar. Ukraynadakı vəziyyət fonunda Avropanın təhlükəsizlik gələcəyi, Cənubi Qafqaz regionu, Yaxın Şərq və Çinin hərəkətlərinin doğuracağı beynəlxalq nəticələr diqqətlə izlənilir". əhatəli müttəfiq yanaşmaları getdikcə daha da zəifləyəcək", - deyə müsahibimiz fikrini tamamlayıb.

Milli Cəbhə partiyası başqanın müavini, siyasi ekspert Məhəmməd Əsədullazadə isə deyib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün Yerevanın Konstitusiya dəyişikliyi mütləqdir. Onun fikrincə Zəngəzur dəhlizinin açılması və Konustitusiya dəyişikliyi sülh müqaviləsinin mətnində yoxdur: "17 bəndlik Sülh müqaviləsinin mətni çap edilməlidir. Ermənistan Azərbaycanın şərtlərini qəbul edib. Amma, üç şərti sülh müqaviləsindən sonraya saxlayıb. Birinci, Konstitusiya dəyişikliyi. İkinci, Minsk qrupunun buraxılması barədə birgə bəyanat. Üçüncü, Zəngəzur dəhlizinin açılması. Ermənistan parlamenti komussiya formalaşdırıb Azərbaycana qarşı ərazi iddialarını qanunvericilik bazasından çıxara bilər. Sülh müqaviləsinin bağlanmasına gəldikdə isə bu heç bir ölkədə deyil, sərhəddə bağlanması daha məqbuldur. Rusiya Moskvada sülh müqaviləsinin bağlanmasını istəyir. Rusiyanı prosesə buraxmaq olmaz. Azərbaycan və Ermənistan Moskvada sülh müqaviləsi bağlamayacaq. Paşinyan Türkiyəyə yaxınlaşmağa çalışır. Türkiyə məhz Ermənistanın müstəqilliyinin qarantı ola bilər. Rusiya və Qərb Ermənistandan regionda yalnız öz satalleti kimi istifadə edir. Ermənistan qanunvericilik bazasında dəyişikliyə gedərsə, bu il yekun sülh müqaviləsinin bağlanması mümkündür".

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Paşinyan sülh sazişini qısa müddətdə imzalamaq istəyir. Onun sözlərinə görə, Azərbaycan rəsmiləri sülh sazişinin mətninin razılaşdırıldığını bildirsələr də, Ermənistan Konstitusiyasında dəyişiklik tələbini də səsləndirirlər: "Paşinyan Konstitusiya dəyişikliyini sülh sazişinin imzalanmasından sonraya saxlamağa çalışır. Rəsmi Bakı bununla razı deyil. Bu səbəbdən Paşinyan müxtəlif dövlət başçılarına zəng edib "sülh sazişinin imzalanması üçün heç bir maneə qalmayıb" deməklə rəsmi Bakının sülh sazişini imzalamaqdan başqa alternativinin qalmayacağını düşünür. Çünki əgər hər iki tərəf mətnin razılaşdırıldığını vurğulayırsa və müxtəlif ölkə liderləri əldə olunan razılaşmanı alqışlayırlarsa, sazişin imzalanması üçün heç bir əngəl qalmamalıdır. Sülh sazişini imzalayıb Paşinyanın "Konstitusiya dəyişikliyini də həyata keçirəcəyik" vədinə inanmaq olarmı? Ermənistanda keçirilən son sorğular göstərir ki, ermənilərin əksəriyyəti Konstitusiya dəyişikliyinin əleyhinədir. Digər tərəfdən Paşinyanın reytinqinin aşağı düşdüyünü göstərən sorğular da var. Bu baxımdan Konstitusiya dəyişikliyinin sonraya saxlanılmasının riskləri mövcuddur".

***Murad İbrahimli***



# Məhkəmə Rüfət Səfərov barəsində qərar verdi

***Binəqədi Rayon Məhkəməsində ictimai fəal Rüfət Səfərov barəsində olan həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanın vəsatətinə və prokurorluğun təqdimatına baxılıb.***

"Unikal" xəbər verir ki, vəsatət təmin olunub və onun barəsində həbs qətimkan tədbirinin müddətinin mayın 3-dək uzadılması ilə bağlı qərar verilib.

Qeyd edək ki, Rüfət Səfərov ötən il dekabrın 3-də saxlanılıb. O, Cinayət Məcəlləsinin 178.3.2. (dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə) və (221.1-ci xuliqanlıq), 127-ci (sağlamlığa yüngül zərər vurma) maddələri ilə ittiham olunur.

# Rövşən Rzayev vətəndaşların suallarını cavablandırdı

***Martın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev əvvəlcədən növbəlilik əsasında qəbula yazılmış vətəndaşların müraciətlərini dinləyib, suallarını cavablandırıb.***

"Unikal" xəbər verir ki, vətəndaşların müraciətləri əsasən, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış, köçürülmənin prinsipləri, sorğuda iştirak, məşğulluqla təminat, eyni zamanda müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər məsələlərlə əlaqədar olub.

Eyni zamanda Komitə sədri Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində verdiyi tapşırıqların sakinlərin rahat və təhlükəsiz yaşayışının, işğaldan azad olunmuş ərazilərin ölkəmizin ən abad guşələrindən birinə çevrilməsinin uğurla həyata keçirildiyini vətəndaşların diqqətinə çatdırıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərdə tarixi və mədəniyyət abidələrinin bərpasının və digər quruculuq işlərini diqqət mərkəzində saxladığı, onun tapşırığı ilə bu sahədə mühüm işlər görüldüyü qeyd edilib. Komitə sədrinin qəbulunda məcburi köçkün olan vətəndaşların müraciətləri dinlənilib və müvafiq qaydada qeydə alınıb. Onlara bildirilib ki, qaldırılan məsələlər araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcəkdir.

# "PAŞA Holdinq"in banklarının rəhbərliyində dəyişiklik oldu

***"PAŞA Holdinq" MMC-yə məxsus "PAŞA Bank" və "Kapital Bank" ASC-lərin rəhbərliyində dəyişiklik olub.***

"Unikal" xəbər verir ki, "PAŞA Bank"ın Müşahidə Şurasının (MŞ) Mir Camal Paşayev vəzifəsini tərk edib, onun yerinə Rövşən Allahverdiyev təyin edilib.

O, indiyə qədər "Kapital Bank"ın MŞ-nın sədri olub. Bu vəzifə isə Fərid Məmmədova həvalə olunub.

11_27 IYUl-QARA.qxd 3/18/2025 10:37 PM Page 5



# İlham Əliyev Azərbaycan xalqını təbrik etdi



***Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram.***

Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.

Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub yaradacaqlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Bayramınız mübarək olsun!

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# Prezident onları təltif etdi - SİYAHI

***Dövlət Miqrasiya Xidmətinin (DMX) əməkdaşları "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamla xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə DMX-nin aşağıdakı əməkdaşları təltif edilib:

Babayev Toğrul Cavanşir oğlu
Cabbarova Könül Şamil qızı
Əsgərov Nəbi Allahverdi oğlu
Fətəliyev Sahil Əli oğlu
Həsənov Cahandar Vidadi oğlu
Musayev Səbuhi Əbülfət oğlu
Mustafayev Şəhriyar Elman oğlu
Orucov Vüsal Ramiz oğlu.

# Ataşkəsi pozaraq "sülhə hazır olan" İrəvanın yeni çirkin oyunu

***Ermənistan tərəfinin həm sülh prosesindən danışması, həm də paralel olaraq şərti sərhədlərdə ataşkəsi pozması İrəvanın ənənəvi oyunlarını davam etdirdiyini göstərir. Baş nazir Nikol Paşinyanın ofisi mövqelərimizin atəşə tutulması ilə bağlı yaydığı bəyanat da bu niyyətə əyani sübutdur.***

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan Baş nazirinin ofisinin sərhəddə atışmalar və digər anti-Azərbaycan iddiaları ilə bağlı bəyanatına münasibət bildirərkən deyib ki, Ermənistan Baş nazirinin ofisinin Azərbaycana qarşı tamamilə əsassız iddialarla yanaşı, yerdəki reallıqları və sərhədyanı bölgələrdə atışma faktlarını təhrif edən 18 mart 2025-ci il tarixli bəyanatını qətiyyətlə rədd edirik.



Onun sözlərinə görə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bəyan etdiyi atəş açılması hallarına, eləcə də Ermənistan tərəfinin də xəbərdar olduğu video çəkilişlərdə görünən Ermənistan hərbi qulluqçularının açıq təxribatlarına son qoyulması sabitlik üçün zəruri şərtdir: "Xoşməramlılıq nümayiş etdirmək və bu cür təxribatlara son qoymaq əvəzinə, Ermənistan tərəfinin mücərrəd və praktiki olaraq qeyri-mümkün təklifləri Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğalı müddətində olduğu kimi heç bir əsası yoxdur. Bu, işğala son qoymağa çağırış etmək əvəzinə, Minsk Qrupu həmsədrlərinin irəli sürdüyü təklifləri xatırladır".

XİN sözçüsü qeyd edib ki, əgər Ermənistan hökuməti, Baş nazirin ofisinin də bəyan etdiyi kimi sülh gündəmini rəhbər tutursa, o zaman sərhədyanı ərazilərdə hücum silahlarının yerləşdirilməsi də daxil olmaqla kütləvi hərbiləşmənin Ermənistanın belə bir gündəliyinə necə xidmət etdiyi barədə izahat verməsi yerinə düşərdi: "İki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılması ilə bağlı Ermənistanın guya xoşməramlı olmasına gəlincə, məhz Azərbaycanın sülh sazişi üzərində işləmək təklifi ilə ilk addımları hələ 2022-ci ilin əvvəlində atmasına baxmayaraq, Ermənistanın bütün vasitələrlə prosesi necə pozduğu faktını xatırlatmaq yerinə düşər. Onu da qeyd edək ki, Ermənistanın danışıqlarda törətdiyi çoxsaylı çağırışlara, o cümlədən Azərbaycan ərazilərindən qalan qüvvələrini çıxarmaqdan imtina etməsinə və ərazilərimizdə qurduqları rejimi təşviq etməsinə baxmayaraq, məhz Azərbaycanın səyləri və tədbirləri nəticəsində prosesdə belə bir nailiyyət əldə olunub.

Eyni zamanda, Azərbaycana qarşı ərazi iddialarına son qoymaq üçün konstitusiyaya dəyişiklik edilməsi barədə uzun müddət bundan əvvəl irəli sürülmüş tələbimizdən xəbərdar olmasına baxmayaraq, Ermənistanın bu çağırışa məhəl qoymaması olduqca narahatlıq doğurur. Danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Bununla yanaşı, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk Qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq".

Ayxan Hacızadə vurğulayıb ki, 30 ilə yaxın müddətdə məhz tərəf olduğu beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəlikləri kobud şəkildə pozan, Azərbaycana qarşı təcavüz törədən, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində qeyri-qanuni yerləşdirməklə beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlədən ölkə kimi Ermənistanın belə mexanizmlərdən danışmağa mənəvi haqqı yoxdur: "Kommunikasiyaların açılması məsələsinə gəldikdə, Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinə baxmayaraq, Ermənistan bu öhdəlikləri 4 il ərzində yerinə yetirməyib. Bunun əvəzinə, onlar diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədilə, mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürülər. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atmalıdır. Azərbaycan bütün istiqamətlərdə sülh səylərini davam etdirəcək və bu prosesə qarşı addımların qarşısını qətiyyətlə alacaq".

# DTX ordu ilə bağlı videoları yayan şəxsi istintaqa cəlb etdi

***17 mart 2025-ci ildə sosial şəbəkələrin xarici seqmentində Azərbaycan Respublikasının dövlət sərhədində guya hərbi əməliyyatlar keçirilməsi ilə bağlı tədbirlərin görüldüyü iddia olunmaqla, Azərbaycan Ordusuna məxsus hərbi texnikanın hərəkəti barədə videogörüntülər yayılıb.***

"Unikal" xəbər verir ki, bu barədəDövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidməti məlumat yayıb. Faktla əlaqədar, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində cinayət işi başlanılmış, aparılmış ilkin araşdırmalar nəticəsində yayımlanmış videokadrların 27 fevral 2025-ci il tarixinə aid olduğu təsbit edilmişdir.

Müəyyənləşdirilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşı, 2007-ci il təvəllüdlü Rüstəmov Səməd Bəhman oğlu



27 fevral 2025-ci ildə Gədəbəy rayonu ərazisində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın hərəkətinin videoçəkilişini aparmış və qanunla yayılması qadağan olunan bu videomaterialı 15 mart 2025-ci ildə özünün "TikTok" sosial şəbəkəsindəki səhifəsində paylaşmışdır. Bundan sonra, həmin videogörüntülərə sosial şəbəkələrdə fərqli dövrlərə aid videokadrlar əlavə edilməklə, həqiqəti əks etdirməyən müxtəlif xəbərlərin istinad mənbəyi olaraq nümayiş etdirildiyi müəyyən olunmuşdur.

Görülən təxirəsalınmaz tədbirlərlə Səməd Rüstəmov saxlanılaraq istintaqa cəlb olunmuş, həmin videogörüntüləri çəkdiyi mobil telefon maddi sübut kimi götürülmüşdür.

Bir daha bildirilir ki, Azərbaycan Ordusunun hərbi birləşmələri, onların dislokasiyası, yerdəyişmələri, döyüş və səfərbərlik hazırlığı, silahları, hərbi texnikası ilə bağlı videokadrların çəkilib internet informasiya ehtiyatında, o cümlədən sosial şəbəkələr vasitəsilə yayımlanması cinayət məsuliyyəti yaradır və belə əməllərə yol verən şəxslər barəsində qanunvericiliklə nəzərdə tutulmuş hüquqi tədbirlərin görülməsi təmin ediləcəkdir.

# Milli Məclis İlham Əliyev və xanımını təbrik edib

***Milli Məclis Prezident İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyevanı Novruz və Ramazan bayramı münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, parlamentin martın 18-də keçirilən plenar iclasında spiker Sahibə Qafarova bayramlarla əlaqədar Prezident və Birinci vitse-prezidentə təbrik məktubu ünvanlamağı təklif edib.

Deputatlar təklifi alqışlarla dəstəkləyiblər.

*Anar Kəlbiyev*

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Prezident və birinci xanım bayramda Ağdərə sakinləri ilə bir arada

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.***

Dövlətimizin başçısı sakinlərlə görüşüb, söhbət etdi.

**Prezident İlham Əliyev:** Salaməleyküm. Xoş gördük, bayramınız mübarək olsun!

**Sakinlər:** Salam, xoş gəlmisiniz, Sizin də bayramınız mübarək olsun, Ramazan bayramınız da mübarək.

**Prezident İlham Əliyev:** Necəsiniz?

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident, Sizinlə həmsöhbət olmaq bizim üçün şərəfdir. Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz. Nə vaxt gəlmisiniz?

**Kişi sakin:** Biz mart ayının əvvəlindən - 3-dən buradayıq.

**Prezident İlham Əliyev:** Artıq yerləşmisiniz.

**Kişi sakin:** Bəli, yerləşmişik, çox gözəldir. İnanın ki, bura həmişə arzumuzda olub, o dağların arxasından buraya həsrətlə baxmışıq. İndi hər şey gerçəkliyə çevrilib.

**Qadın sakin:** Allah Sizdən razı olsun ki, bu günü bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu gözəl bayram günündə artıq sizinlə birlikdə burada olmaq mənim üçün də çox xoşdur. Həsənriz kəndi qədim Azərbaycan kəndidir, bilirsiniz. Burada Azərbaycan xalqı əsrlər boyu yaşayıb, hətta çar Rusiyası dövründə dərc edilmiş xəritələrdə Həsənrizin adı var - Həsənriz kəndi. Qanunsuz olaraq Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılandan sonra ermənilər başqa yerlərdən gətirilərək burada məskunlaşdırıldı və bunun adı da dəyişdirildi. Artıq adını da bərpa etdik, tarixi ədaləti də bərpa etdik, Azərbaycan xalqı da buraya qayıdıb, indi rahat, xoşbəxt yaşayacaq.

**Kişi sakin:** Ədalət də bərpa olundu. Hamısı Sizin sayənizdə.

**Qadın sakin:** Allah Sizi qorusun, ailənizi qorusun. Sizin və güclü siyasətinizin sayəsində biz bu gün firavan yaşayırıq.

**Digər kişi sakin:** 33 ildən sonra bizi doğma Vətənə, ata-baba yurduna qaytarmağınız bizim üçün böyük səadətdir, eyni zamanda, elimiz-obamız üçün yeni həyatın başlanğıcıdır. Dediyiniz kimi, bu bölgələr bizim ulu babalarımızın vətəni olub. O cümlədən onu da qeyd edim ki, bizim əzəli və əbədi düşmənlərimiz bu bölgəni böyük güclər hesabına işğal etmişdir. Amma Sizin komandanlığınız altında Azərbaycan Ordusu cəmicümlətanı 23 saata işğala son qoymuşdur. Çox sağ olun, cənab Prezident, Siz Azərbaycan xalqının, o cümlədən dövlətimizin gücünü dünyaya bəyan etdiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, biz tarixi ədaləti bərpa etməli idik, beynəlxalq hüququ bərpa etməli idik və öz haqqımızı bərpa etməli idik. Ona görə İkinci Vətən müharibəsindən keçən üç il ərzində biz gələcək planlarımız haqqında həm düşünürdük, həm çalışırdıq və əlbəttə ki, separatçıların hər hansı bir formada bu bölgədə qalmaları qeyri-mümkün idi. Biz burada məskunlaşdırılmış erməni əhalisinə də o vaxt təklif etmişdik ki, gəlin, Azərbaycan Bayrağı altında yaşayın, Azərbaycan vətəndaşlığını qəbul edin və burada sizə söz deyən olmayacaq. Bu gün də Xankəndi şəhərində erməni əhalisi var, onlara söz deyən yoxdur, əksinə, bizim sosial işçilərimiz onlara qayğı göstərirlər. Bax, bizim xalqımızın böyüklüyü bundan ibarətdir. Onlar isə bizi bu torpaqlardan, qədim torpaqlarımızdan didərgin salmışdılar, soyqırımı törətmişlər, Azərbaycan xalqına olmazın əzablar vermişdirlər, xalqımızın böyüklüyü məhz bundadır. Biz haqlı olan tərəfik, həm işğal dövründə öz haqq səsimizi ucalda bilmişik və bütün dünyaya sübut edə bilmişik ki, bu, bizim tarixi və hüquqi torpağımızdır. Həm də İkinci Qarabağ müharibəsi dövründə baxmayaraq ki, Ermənistanın arxasında bir çox ölkələr, bir çox qüvvələr dayanmışdı, heç kim bizə əsaslı irad tuta bilməmişdi. Çünki biz beynəlxalq hüquq çərçivəsində öz torpağımızda müharibə aparırdıq. O cümlədən







cəmi bir neçə saat çəkən antiterror əməliyyatı zamanı da bizə qarşı siyasi, ondan sonra digər hərəkətlər olsa da, onların heç bir nəticəsi olmadı. Beynəlxalq təşkilatlarda Ermənistanın havadarları Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, digər addımlar atmağa çalışdılar, buna nail ola bilmədilər. Haqq-ədalət bizim tərəfimizdədir. Həsənrizin azad olunmasının təməli məhz İkinci Qarabağ müharibəsi zamanı qoyulmuşdur. O vaxt artıq Qarabağın böyük hissəsi işğalçılardan azad edilmişdir. İkinci Qarabağ müharibəsindən sonra bir neçə əməliyyat nəticəsində mövqelərimizi daha da yaxşılaşdırdıq ki, ən qısa müddət ərzində az itki verməklə bütün qalan yerləri də nəzarətə götürək. Bu gün Həsənrizdə İlaxır çərşənbə günündə görüşürük. Sizi, Azərbaycan xalqını bayram münasibətilə təbrik edirəm. Ramazan bayramı da gəlir, Novruz bayramı da gəlir, bu gözəl bayram günündə, bayramlar ərəfəsində sizinlə görüşmək böyük məmnuniyyət doğurur.

**Sakinlər:** Sizin də bayramlarınızı təbrik edirik. Siz Ali Baş Komandan kimi Qələbəni təmin etdiniz.

**Prezident İlham Əliyev:** Allah şəhidlərimizə rəhmət eləsin, biz bu torpaqları onların qanı-canı bahasına azad etmişik.

**Kişi sakin:** Bu kənddən çıxanda o Murov yolunda nə zillətlər görən camaat indi toy-bayramla qayıtdı. 34 ildən sonra hamı sevinclə buraya qayıtdı.

**Prezident İlham Əliyev:** O vaxt işğal dövründə camaat buradan Murov yolu ilə çıxmışdı?

**Kişi sakin:** Bəli, qoca qadın evdə yanıb, çarpayıda sümükləri qalmışdı. O, mənim nənəm idi. O cür əziyyətlər yaşamışıq.

**Prezident İlham Əliyev:** O tərəf, yəni artıq buradan keçmək mümkün deyildi, bağlanmışdı? Suqovuşan tərəf də bağlanmışdı?

**Kişi sakin:** Bütün buralar bağlı idi, yalnız Murov dağından Kəlbəcər tərəfdən nə zülmlərlə.

**Prezident İlham Əliyev:** Uzaq yoldu, neçə kilometr olar? 40-50 kilometr olar?

**Kişi sakin:** 58 kilometr hələ Kəlbəcərlə sərhədə qədərdir.

**Digər kişi sakin:** Şükür bu günə, Sizin, Ordumuzun sayəsində qayıtmışıq.

**Prezident İlham Əliyev:** Burada evlər bərpa edildi, yeni evlər də tikiləcək. İndi, birinci mərhələdə 163 ailə yerləşəcək.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Cənab Prezident, ümumiyyətlə, burada 606 ev var. İlkin olaraq 92 evi təmir etmişik, 50 ailə artıq köçüb. Yaxın ayın sonuna 40 ailə də köçəcək. Ondan sonra da iki mərhələdə 192 ev. Amma təklif edərdik ki, bütün infrastruktur bərpa edilsin.

**Prezident İlham Əliyev:** Bütün, hamısını. Bəli, hamısını. Siz təklif verin, onların hamısını bərpa edək. Çünki mənə verilən məlumata görə, artıq burada həm Həsənrizdə, həm də Kəlbəcər rayonunda yaşamış insanlar yerləşir.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Artıq buraya köçmək üçün 360 nəfər siyahıya alınıb.

**Prezident İlham Əliyev:** Bura çox gözəl, səfalı yerlərdir.

**Kişi sakin:** Şuşa ilə bərabər yerdir, relyefi də oxşardır.

**Prezident İlham Əliyev:** Bəli, Şuşadan üstünlüyü ondadır ki, Sərsəng su anbarı da var, orada balıq tutmaq olar. İş yerləri ilə bağlı nə işlər görülür?

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Böyük kənd olduğuna görə burada 13 təsərrüfat subyekti ilə, obyektlərlə bağlı müraciətlər olub. Bundan başqa, yaxın yerlərdə, icazə versəydiniz, fermalar var, o fermaları icarə verərdik.

**Prezident İlham Əliyev:** Əlbəttə. Bir də ki, əkin sahələri verilməlidir, əkin-biçinlə məşğul olsunlar. Heyvandarlıq üçün bura ən yaxşı yerdir.

**Kişi sakin:** Bu sakinlər hamısı heyvandarlıqla məşğul olublar. Cənab Prezident, əmin edim ki, bizim kənddə müxalifətçi olmayıb. Bizim kəndin camaatından bir adam fikirləşə bilmirdi ki, kimsə müxalifətçi olub. Heç vaxt. Hamımız təsərrüfatla, dövlətə qulluqla məşğul olmuşuq. İndi də inanmıram, görməmişik, eşitməmişik.

**Prezident İlham Əliyev:** Olsa da bir problem yoxdur. Əsas dövlətə, dövlətçiliyə müxalifətdə olmasınlar.

**Kişi sakin:** Ümumiyyətlə, bizə gülünc gəlir.

**Prezident İlham Əliyev:** Özlərini müxalifətçi adlandıran bəziləri dövlətə qarşı, o cümlədən İkinci Qarabağ müharibəsi dövründə, antiterror əməliyyatı dövründə, indinin özündə ermənilərlə birləşib. Bu, dövlətə qarşı düşmənçilikdir və əslində, xəyanətdir.

**Kişi sakin:** Bəli, bəli, xəyanətdir.

**Prezident İlham Əliyev:** Ona görə burada yaxşı təsərrüfatlar qurulmalıdır. İndi bizim İqtisadiyyat Nazirliyinin xətti ilə kredit xətləri açılmalıdır ki, kim mal-qara saxlamaq, əkin-biçinlə məşğul olmaq istəyir, burada su problemi olmamalıdır.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Düzdür cənab Prezident, bunlarla məşğul oluruq, su problemi də yoxdur.

**Prezident İlham Əliyev:** Bulaqlar var?

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Gözəl suyu var.

**Prezident İlham Əliyev:** İşıq var, qaz var, su da var, internet, istilik.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Hər həyətdə su var. Su, işıq, qaz, 500 nəfərlik məktəb, internet. Təmir olunan evlərin hamısında istilik.

**Prezident İlham Əliyev:** Məktəb də budur, onu da təmir etmişik.

**Kişi sakin:** Bəli, xəstəxanamız da var.

**Prezident İlham Əliyev:** Əlavə nə lazımdır?

**Kişi sakin:** Sizin sağlığınız.

**Qadın sakin:** Sizinlə qürur duyuruq hər zaman. İnsan həm sevinir, həm qürurlanır.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız? Laçınlısan?

**Qadın sakin:** Bəli, atam da birinci qrup Qarabağ qazisidir. Bir qazi övladı olaraq Sizə, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm ki, hər zaman şəhid ailələrinə və qazilərimizə dəyər vermisiniz.

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

**Sakinlər:** Bayramınız mübarək olsun, Allah Sizi qorusun cənab Prezident!

**Prezident İlham Əliyev:** Burada birlikdə şəkil çəkdirək.

**Mehriban xanım Əliyeva:** Tonqal da görünəcək.

***

Sonra dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə birlikdə Novruz tonqalını alovlandırdılar.

11_27 IYUl-QARA.qxd 3/18/2025 10:37 PM Page 7



# Baş nazir hava gəmilərində daşınma ilə bağlı qərar imzaladı



***Nazirlər Kabineti "Təhlükəli yüklərin mülki hava gəmilərində daşınması Qaydaları"nı təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, Qaydalar "Aviasiya haqqında" qanuna uyğun hazırlanıb və mülki hava gəmiləri ilə Azərbaycan ərazisinə və ərazisindən təhlükəli yüklər daşınmasına dair ümumi tələbləri müəyyən edir. Onunla tənzimlənməyən məsələlər "Beynəlxalq Mülki Aviasiya haqqında" 7 dekabr 1944-cü il tarixli Konvensiya, ona 6 nömrəli Əlavə - "Hava gəmilərinin istismarı" və 18 nömrəli Əlavə - "Təhlükəli yüklərin hava nəqliyyatı ilə təhlükəsiz daşınması" ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, o cümlədən "Doc 9284, təhlükəli yüklərin hava nəqliyyatı ilə təhlükəsiz daşınmasına dair texniki təlimatlar"ının tələblərinə uyğun həyata keçirilir.

Qaydaların əsas məqsədi təhlükəli yüklərin mülki hava gəmiləri ilə təhlükəsiz daşınması şərtlərini müəyyən etməklə, uçuşların təhlükəsizliyinin təmin edilməsi, aviasiya hadisələri və aviasiya insidentlərinin sayının minimuma endirilməsi, təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması sahəsində mülki aviasiyanın fəaliyyətinə ehtimal olunan qanunsuz müdaxilə aktlarının qarşısını almaqla əhalinin, sərnişinlərin və hava gəmisinin heyətinin həyat və sağlamlığının qorunması, təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması və təhlükəsizliyinin təmini ilə məşğul olan subyektlərin dayanıqlı fəaliyyəti və inkişafı üçün hüquqi təminatın yaradılması, həmçinin bütün təhlükəli yüklərlə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatının təhlükəsizlik standartlarının tətbiq olunmasını təmin etməkdir.

Təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasına dair xüsusi tələblər, hava limanlarında təhlükəli yüklərlə bağlı əməliyyatlar (təhlükəli yüklərin qəbulu, saxlanılması, yüklənib-boşaldılması) beynəlxalq standartlar və tövsiyə olunan təcrübə ilə müəyyən edilir.

# Məhkəmə Ələsgər Məmmədli barədə qərar verdi

***Xətai rayon Məhkəməsində hakim Sülhanə Hacıyevanın sədrliyi ilə Ələsgər Məmmədlinin "ev dustaqlığı"na buraxılması ilə bağlı növbəti vəsatətinə baxılıb.***

Bu barədə Ələsgər Məmmədlinin qardaşı Nəsimi Məmmədli bildirib. Onun sözlərinə görə, Ələsgər Məmmədli məhkəmə iclasında geniş çıxış edib. O bildirib ki, istintaqın materialları ilə tanışlıq zamanı aydın olub ki, həbsinə əsas olacaq heç bir fakt və sübut yoxdur.

Ə.Məmmədli hüququ pozan hakim kimi Sülhanə Hacıyevadan Məhkəmə Hüquq Şurasına 35 səhifəlik şikayət yazdığını xatırladıb. O deyib ki, səhhətindəki ciddi problemlərə görə, təcili cərrahi əməliyyatı olunmalıdır. "Eyni zamanda mən ictimai statusu olan, ölkədə tanınmış hüquqşünas kimi törətmədiyim əmələ görə niyə bir ildən çoxdur həbsxanada olmalıyam?", - Ə.Məmmədli hakimdən soruşub.

Hüquqşünas Novruz bayramı ərəfəsində azadlığa buraxılması barədə qərar verilməsinin cəmiyyətdə rəğbətlə qarşılana biləcəyini vurğulayıb.

Hakim Sülhanə Hacıyeva Ələsgər Məmmədlinin "ev dustaqlığı"na buraxılması ilə bağlı vəsatəti təmin etməyib və onun həbsd saxlanması barədə qərar qüvvədə qalıb.

# Londondan Bakı və İrəvana çağırış

***Böyük Britaniyanın Xarici İşlər, Birlik və İnkişaf Məsələləri üzrə Dövlət Katibi Devid Lemmi Azərbaycan və Ermənistan arasında sülh sazişi layihəsi üzrə danışıqların yekunlaşmasını alqışlayıb.***

"Unikal" xəbər verir ki, Dövlət Katibi bu barədə parlamentdə çıxışı zamanı açıqlayıb.

"Ermənistan və Azərbaycan tarixi sülh sazişi üzrə danışıqları yekunlaşdırıb. Biz bu nailiyyəti səmimiyyətlə alqışlayırıq və hər iki tərəfi mümkün qədər tez imza prosesinə keçməyə çağırırıq", - diplomat deyib.

***Ağarza Elçinoğlu***

# "Sülh müqaviləsinin imzalanmasına mane olmaq istəyən qüvvələr var"

## Arzu Nağıyev: "Azərbaycan özünün daxili və xarici siyasətini müstəqil şəkildə həyata keçirərək hər bir təxribatın qarşısını almağa hazırdır"



***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, son günlər Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasından, bu atışmaların daha böyük toqquşmalara səbəb olub-olmayacağından, sülh sazişinin imzalanmasına kimlərin mane olmasından və hazırda baş verənlərin Zəngəzur dəhlizinin açılmasına necə təsir edəcəyindən danışıb.***

***-Arzu müəllim, son günlər Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Mövqelərimizin atəşə tutulmasında məqsəd nədir?***

-Sülh müqaviləsinin imzalanması istiqamətində atılan hər bir addıma mane olmaq istəyən müəyyən qüvvələr var. Bunlar həm Ermənistanın havadarları, sülhün olmasını istəməyən dövlətlərdir, həm də daxili müxalifət istəmir ki, tezliklə sülh müqaviləsi imzalansın. Sülh müqaviləsinin əsas istiqamətləri sərhədlərdə üçüncü dövlətlərin qoşunlarının yığılmaması, Ermənistan konstitusiyasının dəyişdirilməsi və ATƏT-in Minsk qrupunun ləğv edilməsi məsələləridir. Sülh müqaviləsindən sonra beynəlxalq səviyyədə bir-birinə qarşı imtiyaz məsələlərinin qaldırılmaması da razılaşdırılıb. Mühüm məsələdir ki, Avropa İttifaqının vizual kəşfiyyatçılarından və silahlı qüvvələrindən ibarət şəxslər çalışırlar ki, Ermənistan silahlı qüvvələri bölmələrimizi atəşə tutduqdan sonra Azərbaycan adekvat cavab versin. Bundan sonra dünyaya yaysınlar ki, atəşkəsi Azərbaycan pozur və sülhün bərqərar olmasını istəmir. Digər məsələ odur ki, Ermənistanın müxtəlif sərhədlərində Rusiya Federal Təhlükəsizlik xidmətinin sərhəd qoşunları dayanır. Bunların funksiyasını azaltmaq üçün addımlar atırlar. Rusiyanı nüfuzdan salmaq istəyirlər ki, onlar Cənubi Qafqazda sülhün olmasını istəmir və buna çalışmırlar. Unutmaq lazım deyil ki, Ermənistan və Türkiyə sərhəddi NATO və Rusiya sərhəddidir. Ona görə bu sərhədlərdə nə qədər problem çox yaransa, Avropa İttifaqı və digərləri öz bəyanatları ilə çıxış edəcəklər. Hətta KİV-lərdə ABŞ, NATO qoşunlarının sərhəddə, Ermənistana daşınması kimi fikirlər yer alır. Bu, həmişə olub, təlimlə bağlıdır. Bunu qabartmaqda nə məqsəd sülh müqaviləsinin imzalanmasına mane olmaqdır.

***-Mövqelərimizin atəşə tutulması gün ərzində də davam edib. Bu təxribatlar geniş toqquşmalara səbəb ola bilərmi?***

-Ermənistanda ehtiyat qüvvələrin yenidən təlimlərə çağırılması var. Bu təlimlər aprel ayından başlayaraq 10-15 gün çəkirdi. Bu dəfə isə həmin təlimlərin aprelin 1-dən iyun ayına qədər olması ilə bağlı elan verilib. Ehtiyat qüvvələrin çağırılması təlim xarakterlidir. Onlar düşünürlər ki, Azərbaycan Zəngəzur dəhlizinin və digər kommunikasiyaların açılmasında hərbi yola gedə bilər. Guya, buna görə həmin çağırışı edirlər. Bunların hamısının problemi Ermənistan hökuməti, dövləti tam şəkildə idarə edə bilməməsidir. Bunlar gah Avropaya, gah da digər qüvvələrə arxalanırlar. Azərbaycan özünün daxili və xarici siyasətini müstəqil şəkildə həyata keçirərək hər bir təxribatın qarşısını almağa hazırdır.

***-Bu günlərdə açıqlandı ki, sülh sazişinin mətni ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Bunun imzalanmasına mane olan kimlərdir?***

-Ermənistanın baş nazirinin, xarici işlər nazirinin verdiyi bəyanatlarla ümumi məqsəd üst-üstə düşmür. Vaxtilə hökumət rəhbəri olmuş Koçaryanlar, Sarkisyanlar bilir ki, gələcəkdə sülh müqaviləsi imzalansa, onları da Arayik Harutyunyanların, Arkadi Qukasyanların və digərlərinin taleyi gözləyə bilər. Bu baxımdan ciddi cəhdlə çalışırlar ki, sülh bərqərar olmasın.

***-Baş verən hadisələr fonunda diqqət çəkən məqamlardan biri də Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyi ilə bağlıdır...***

-Zəngəzur dəhlizi məsələsi tək Ermənistanın istəyindən asılı deyil. Bu dəhliz Çindən Avropaya gedən yoldur. Onun operatorluğunu da Azərbaycan edir. İstər İran və yaxud digərləri bunun əleyhinə olsun, düşünürəm ki, Zəngəzur dəhlizi açılacaq. Nə zaman olacağı ilə bağlı proqnoz vermək çətindir. Amma 2025-ci ilə ümidlər çoxdur.

***Anar Kəlbiyev***

# Rövşən Əsgərov ailəsi ilə birlikdə Bakıya köçüb



***"Nə? Harada? Nə zaman?" intellektual oyunun keçmiş iştirakçısı, azərbaycanlı jurnalist Rövşən Əsgərov Rusiyanı tərk edərək, ailəsi ilə birlikdə Bakıya köçüb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mətbuatı məlumat dərc edib.

Rusiya Federasiyasında xarici agent kimi tanınan Əsgərovun Moskvada 45 milyon rubl (915 615 AZN) dəyərində elit mənzilinin olduğu ortaya çıxıb.

Xatırladaq ki, bu ilin yanvarında Əsgərov ekstremist və terrorçular siyahısına əlavə edilib.

***Gülayə Mecid***

# Oqtay Şirəliyevin daha bir kadrı hədəfdə

## Respublika Endokrinoloji Mərkəzində nə baş verir? - Yoxlamaların pərdəarxası...



***Bu günlərdə ölkə mediası Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Respublika Endokrinoloji Mərkəzdə yoxlamalara başladığına dair məlumat yayıb.***

Trend-in əldə etdiyi məlumata görə, artıq Mərkəzin rəhbərliyi və bir neçə həkim endokrinoloq barəsində cinayət işi başlanıb. Belə ki, istintaqa cəlb olunanlar arasında Mərkəzin direktoru Nərmin İsmayılova, inzibati işlər üzrə direktor müavini Vəfa Kərimova, baş həkim Ülviyə Əhmədova və digər şəxslər var.

Məlumata görə, istintaqa cəlb edilən rəhbər vəzifəli şəxslər Mərkəzdə ciddi qanun pozuntularına yol veriblər. Mərkəzdə xəstələrdən kütləvi şəkildə rüşvət tələb etmə, xəstə qəbulu prosesində nöqsanlar, qanunsuz reseptlərin yazılması, insulin və digər diabetik dərman preparatlarının pul müqabilində satılması kimi neqativ hallar müəyyən edilib.

Hətta, Mərkəzin həkimləri sağlam şəxslərə ağır diabet diaqnozu qoyaraq onlara arayşları yüksək məbləğ müqabilində satıblar. Hazırda həbs edilənlər olmasa da bir neçə həkimin ev dustaqlığına alınması haqda qərar verilib.

Bu xəbərin üstündən bir neçə gün keçdikdən sonra Respublika Endokrinoloji Mərkəzin direktoru vəzifəsində çalışmış Nərmin İsmayılova APA-ya bildirib ki, adı çəkilən qurumda əməliyyat inzibati işlər üzrə direktor müavini vəzifəsində çalışmış Vəfa Kərimovadan edilən şikayət əsasında bu il martın 11-də əməliyyat keçirilib. Sitat: "Əməliyyat nəticəsində saxlanılan olmayıb".

Aparılan araşdırma ilə bağlı özünün və digər əməkdaşların ifadə verdiyini bildirən Nərmin İsmayılovanın sözlərinə görə, Mərkəz barəsindəki şikayətdə yazılıb ki, orada insulin satılıb. Sitat: "Mən insulin satanam? İnsulini necə satmaq olar? Mərkəzdə 1300 uşaq qeydiyyatdadır. Onlar vaxtında insulinlə təmin olunur. Bəzən heç insulin çatmır. Belə olan halda necə satıla bilər?"

İsmayılovanın sözlərinə görə, bu il 12-17 yanvar tarixlərində TƏBİB mərkəzdə maliyyə yoxlaması aparıb: "Dərman preparatları bir-bir yoxlanıb. İnsulinlə yanaşı, bizdə uşaqlara boy hormonu verilir. Onunla bağlı kiminsə şikayəti olubmu? Xeyr, qeydiyyatda olan xəstələrdən kimsə şikayət etməyib. İnsulin satılması faktı da olmayıb. İnsulin dövlət tərəfindən pulsuz təmin olunur. Yalnız xüsusi qrup xəstələrə verilir".

Onun sözlərinə görə, cinayət işi açılsa da, saxlanılan olmayıb: "Məni iş üzrə bir dəfə ifadə vermişəm. Mən hər zaman dövlətin mənafeyini qorumuşam".

O, barələrində ev dustaqlığı qətimkan tədbirinin seçilməsi haqda məlumatı təkzib edib.

N. İsmayılova əməliyyatdan sonra özünün və baş həkim Ülviyyə Əhmədovanın işdən öz ərizələri ilə çıxdıqlarını deyib.

Direktor müavini vəzifəsində çalışan Vəfa Kərimova isə 46 saylı şəhər poliklinikasına baş həkim vəzifəsinə təyin olunub: "O, 1 aydır bizimlə əməkdaşlıq etmirdi".

N.İsmayılova mərkəzin direktoru vəzifəsinə hələlik təyinat olmadığını bildirib.

Qeyd edək ki, Respublika Endokrinoloji Mərkəzinin bir sıra vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb. Bu barədə dünən Baş Prokurorluq və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) birgə məlumat yayıb. "Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Respublika Endokrinoloji Mərkəzinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı daxil olmuş məlumat əsasında əməliyyat-axtarış tədbirləri keçirilib.

Qeyd edilən Mərkəzin vəzifəli şəxsləri tərəfindən öz həqiqi təsir imkanlarından istifadə edilərək digər vəzifəli şəxslərin qərarına qanunsuz təsir etməklə şəkərli diabet xəstəliyindən əziyyət çəkən şəxslərin qeydiyyata alınması, onların müxtəlif dərman vasitələri ilə təmin edilməsi və bu kimi başqa məqsədlərlə ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaiti almalarına və vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə əsaslı şübhələr müəyyən edilib. Toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)) maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət əməllərinin törədilməsində təqsirli şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri tədbirlər davam etdirilir", - deyə məlumatda qeyd olunub.

"Unikal"a danışan mənbələrin sözlərinə görə, N.İsmayılova 6 ilə yaxın müddətdə, 2019-cu ildən etibarən Respublika Endokrinoloji Mərkəzinə rəhbər vəzifədə çalışıb. Onun həmin vəzifəyə təyinatında isə sabiq səhiyyə naziri Oqtay Şirəliyevin həlledici rol oynadığı deyilir.

N.İsmayılova tibb üzrə fəlsəfə doktorudur və 25 ildən çoxdur ki, endokrinoloji sahədə çalışır.

Xatırladaq ki, bir müddətdir sabiq səhiyyə naziri Oqtay Şirəliyevin başqa bir kadrı ətrafında da qalmaqal yaşanır. Belə ki, Şirəliyevin vaxtilə C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutuna direktor təyin etdiyi Gülnaz Dadaşova ilə kollektiv arasında ciddi gərginlik hökm sürür. Tərəflər bir-birinin ünvanına mütəmadi şəkildə ağır ittihamlar səsləndirirlər. Məsələn, belə ittihamlardan birində direktorun əleyhdarları bildirirlər ki, G.Dadaşova "özündən yaşca və təcrübəcə böyük olan alimləri, professorları saatlarla qapısının ağzında gözlətdirir, onlarla kobud rəftar edir, lazımsız tələblər irəli sürür, yersiz izahatlar yazdırır. İstəyir ki, hamı bezib öz ərizəsi ilə işdən çıxsın. Onun bu hərəkətlərinə qarşı çıxanları isə şərböhtan atmaqla işdən uzaqlaşdırır". Başqa bir məlumata görə, təzəlikcə Gülnaz Dadaşovanın elmi işçilər üçün attestasiya keçirmək cəhdi fiasko ilə nəticələnib. Belə ki, birinci mərhələdə attestasiyaya cəlb edilən elmi dərəcəsi olan (elmlər doktorları və tibb üzrə fəlsəfə doktorları) 20 nəfərə yaxın tibbi işçisi attestasiyanın qanunsuz olduğunu əsas gətirərək, orada iştirak etməkdən imtina ediblər.

Maraqlı burasıdır ki, Səhiyyə Nazirliyinin rəhbərliyi C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitunda artıq əndazədən çıxan bu qalmaqalı sakitcə izləməklə kifayətlənir.

İndi isə Respublika Endokrinoloji Mərkəzində baş verənlər ölkənin səhiyyə sistemininin özündə ciddi "müalicəyə" ehtiyac yarandığını növbəti dəfə gözlər önünə sərir...

***Sənan Mirzə***

# Milli Məclis bu sazişi təsdiqlədi



***Milli Məclisin iclasında "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, müzakirələrdən sonra layihə səsverməyə çıxarılaraq qəbul edilib.

# Rəqəmsal platformalarda reklam şərtləri müəyyənləşir

***Reklam daşıyıcısı olan rəqəmsal platformalarda reklam şərtləri müəyyənləşir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirə edilən "Reklam haqqında" qanuna təklif edilən yeni - 26-1-ci maddədə əksini tapıb.

Layihəyə əsasən, rəqəmsal platforma təsirçisi tərəfindən həyata keçirilən reklam yayımı "reklam", "reklam hüququ əsasında", "sponsorluq" və ya "tərəfdaşlıq" qeydi ilə müşayiət olunmalıdır. Rəqəmsal platforma təsirçisi tərəfindən reklamı həyata keçirilən əmtəənin təqdim edilməsi zamanı reklam materiallarını audio və ya vizual olaraq dəyişən tətbiqlərdən istifadə edildikdə bu barədə reklam istehlakçısı məlumatlandırılmalıdır.

Rəqəmsal platforma təsirçisi tərəfindən həyata keçirilən reklam fəaliyyəti zamanı reklamverici barədə aşağıdakı məlumatlar verilməlidir:

- hüquqi şəxsin adı, faktiki ünvanı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;
- sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı, fəaliyyət ünvanı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;
- əlaqə məlumatları (telefon və elektron poçt ünvanı).

**Rəqəmsal platforma təsirçisi tərəfindən həyata keçirilən reklam fəaliyyəti zamanı aşağıdakılar qadağan edilir:**

- özünün istehlak etmədiyi əmtəəni istehlak etməsi barədə yanlış təsəvvür yaratmaq;
- reklam daşıyıcısı olan rəqəmsal platforma vasitəsilə reklam olunan əmtəə barədə məlumat vermək üçün saxta hesablar yaratmaq.

Nəzərdə tutulmuş tələblər audiovizual media subyektlərinin reklam daşıyıcısı olan rəqəmsal platformalardakı reklam fəaliyyətlərinə aid edilmir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Mobil tətbiqlər reklam daşıyıcısı siyahısına daxil edilir

***Reklam daşıyıcılarının əhatə dairəsi genişlənir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirə edilən "Reklam haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Bu sıraya mobil tətbiqlər (dövlət orqanlarının (qurumlarının) mobil tətbiqləri istisna olmaqla) və rəqəmsal platformalar (o cümlədən onların bir hissəsi), reklam xarakterli bildiriş və sms-lər, reklam daşıyıcısı olan rəqəmsal platforma - reklamın yayımlanması üçün istifadə olunan internet informasiya ehtiyatı (dövlət informasiya ehtiyatları istisna olmaqla), informasiya-telekommunikasiya şəbəkəsi və ya onların mobil tətbiqləri, o cümlədən rəqəmsal platforma təsirçisi - maddi qazanc qarşılığında öz nüfuzundan istifadə etməklə reklam daşıyıcısı olan rəqəmsal platformalarda reklam fəaliyyətini həyata keçirən fiziki və ya hüquqi şəxs daxil edilir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

# Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elan edildi




***Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə nazirlik məlumat yayıb. Sənəd qəbulu cari ilin 30 aprel tarixinədək baş tutacaq.

"Sənəd qəbulu 18 mart - 30 aprel tarixlərində (bayram və qeyri-iş günləri daxil) elektron qaydada, həmçinin 1 aprel - 30 aprel tarixlərində regional sənəd qəbulu mərkəzlərində olmaqla iki formada həyata keçiriləcək. Sənəd qəbulu mərkəzləri Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir, Quba, Ağcabədi və Şirvan şəhərlərində yerləşən Dövlət Məşğulluq Agentliyinin məşğulluq filiallarında və xidmət şöbələrində, Bakı şəhərində isə Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda (Ünvan: Bakı şəhəri, Xətai rayonu, Polad Həşimov küçəsi 9a) fəaliyyət göstərəcək", - nazirlikdən bildirilib.

Qaydalara əsasən, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursu"na ən azı ümumi orta təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər, eləcə də Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə) və "q" bəndinə (ştat ixtisarına görə) müvafiq olaraq ordu sıralarından ehtiyata buraxılmış 40 yaşı tamam olmayan hərbi vəzifəlilər qəbul edilir.

Elektron qaydada müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Çavuş hazırlığı (MAHHXHQ)" hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola və müraciət edə bilər.

# DYP əhaliyə müraciət etdi

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) qeyri-iş günlərində xidmətin təşkili ilə bağlı əhaliyə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə qeyd olunub ki, bayramla əlaqədar qeyri-iş günlərində vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə, paytaxtın Sabunçu və Qaradağ rayonları ərazisində yerləşən texniki müayinə mərkəzləri fasiləsiz olaraq, hər gün saat 09:00-dan 23:00-dək fəaliyyət göstərəcək.

Bununla yanaşı, qeyri-iş günlərində nəqliyyat vasitələri ilə bağlı qeydiyyat hərəkətlərinin aparılması, həmçinin təyin olunmuş imtahanların keçirilməsi prosesində fasiləsizliyin təmin edilməsi üçün Baş DYP İdarəsinin Qeydiyyat-imtahan idarəsində, eləcə də regionlarda fəaliyyət göstərən qeydiyyat-imtahan və texniki baxış şöbələrində xidmət saat 09:00-dan 18:00-dək təşkil olunacaq.

Nəqliyyat vasitələrinin sahibləri və sürücülər asudə vaxtlarının çoxluğunu və yaradılmış imkanları dəyərləndirərək istər texniki baxış, istərsə də qeydiyyat-imtahanla bağlı adi iş günlərdə olduğu kimi DYP-nin aidiyyəti qurumlarına müraciət edə bilərlər.

# Sosial xidmətin keyfiyyətinə nəzarət qaydaları müəyyənləşir

***Sosial xidmətin keyfiyyətinə nəzarət qaydaları müəyyən edilir.***

"Unikal" xəbər verir ki, bu barədə dəyişiklik Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Sosial xidmət haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Bununla bağlı qanunun 28-ci maddəsinə dəyişiklik təklif edilir. Qanunun qüvvədə olan redaksiyasında sosial xidmət göstərən subyektlər tərəfindən göstərilən sosial xidmətin keyfiyyətinə, səmərəliliyinə, dövlət standartlarının tələblərinə əməl olunmasına nəzarət müəyyən olunsa da nəzarətin hansı qaydada aparılması müəyyən olunmamışdır.

Belə ki, sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi qaydasını müəyyən etmək məqsədilə qeyd olunan maddəyə dəyişiklik təklif olunur. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Nazim İbrahimovun adı yeni qalmaqalda

## Azərbaycanın Ukraynadakı keçmiş səfirinə açılan cinayət işi sabiq komitə sədrinə də başağrısı yarada bilər

***Baş Prokurorluq Azərbaycanın axtarışa verdiyi bir sıra təqsirləndirilən şəxslər barədə Cinayət-Prosessual Məcəlləsinin 467-13.4 maddəsinin tələbinə əsasən rəsmi bildiriş yaymağa başlayıb.***

Məcəllənin qeyd olunan maddəsinə görə, cinayət prosesini həyata keçirən orqan - Baş Prokurorluğun İstintaq Baş İdarəsi - təqsirsizlik prezumpsiyasına riayət etməklə, bu məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları İctimai televiziya və radio (İTV) vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc edir.



Məcəllənin 54-2-ci maddəsi isə "Çağırış" vərəqi adlanır. Bu maddənin ikinci bəndi çağırış vərəqəsində istintaqı həyata keçirən orqanın adı, çağırışın vaxtı, ittihamın mahiyyəti və digər məlumatların göstərilməsini vacib sayır.

Vəkillər Kollegiyasının üzvü Vüsal Cəfərov "Teleqraf"a açıqlamasında deyib ki, bundan sonra təqsirləndirilən şəxslərlə bağlı qiyabi icraat tətbiq olunacaq: "Qiyabi icraat o hallarda tətbiq olunur ki, təqsirləndirilən şəxs cinayət təqibini həyata keçirən orqandan gizlənir və ya dəfələrlə göndərilən çağırışlara baxmayaraq, məsuliyyətdən yayınır və ya Azərbaycandan kənarda gizlənir. Qiyabi icraatın əsas məqsədi budur ki, həmin şəxsin istintaq və məhkəmədən yayınmasının qarşısı alınsın, bütövlükdə cinayət işinin araşdırılmasına mane olmasın".

2024-cü ilin əvvəlində Cinayət-Prosessual Məcəlləsinə əlavə olunan prosessual sənədlərin rəsmi qaydada verilməsi ilə bağlı yeni fəsilə əsasən, istintaqdan yayındıqları üçün barələrində məhkəmə qərarı ilə axtarış elan edilmiş şəxslər haqqında qiyabi icraat aparıla bilər.

V.Cəfərov qiyabi icraatın mahiyyətini bu cür izah edib: "Kimsə dələduzluq ittihamı ilə axtarışdadır, lakin illərlə xaricə qaçdığı üçün onun istintaq orqanına cəlb olunması mümkün olmur. Bu halda dövlət orqanları bütün vasitələrlə onu axtarmağa çalışırlar, amma heç bir nəticə olmursa, qanun müəyyən şərtlər əsasında həmin şəxsə qarşı cinayət işini qiyabi qaydada davam etdirməyə imkan verir".

Onun sözlərinə görə, bütün axtarış, çağırış tədbirləri nəticə vermirsə, istintaq orqanı (təqsirsizlik prezumpsiyasına riayət etməklə) çağırış barədə informasiyanı İctimai televiziya, radio vasitəsi ilə yayır, eləcə də rəsmi internet səhifəsində yerləşdirir: "Bu, sonuncu cəhddir ki, şəxs ya özü çıxsın ortaya, ya da xəbəri olsun ki, barəsində qiyabi proses başlayacaq".

Azərbaycanın müvafiq məhkəmələri axtarış elan etdiyi şəxslər arasında Azərbaycanın Ukraynadakı keçmiş səfiri Tələt Əliyev də var. Yerli KİV-də yayılan məlumatlara görə, onun barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) ilə ittiham verilərək barəsində axtarış elan olunub. Bu isə sabiq səfir barədə də müvafiq prosedura uyğun olaraq qiyabi icraat aparılacağı deməkdir.

Daha bir diqqətçəkən məqam T.Əliyevin bəzi sabiq məmurlarla bağlılığıdır. Bu sırada ilk olaraq Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun adı çəkilir.

Qeyd edilir ki, Nazim İbrahimov komitə sədri təyin edilməzdən əvvəl məhz Ukraynadakı səfirliyimizin rəhbəri olub. Komitə sədri təyin edildikdən sonra isə Tələt Əliyev məhz onun təqdimatı ilə səfir vəzifəsinə təyinat alıb. Maraqlı burasıdır ki, İbrahimov komitə sədri postundan azad olunduqdan sonra onun bu quruma ayrılan dövlət vəsaitlərini təyinatı üzrə xərcləmədiyi üçün vəzifəsini itirdiyinə dair məlumatlar yayılıb. Hətta Prezident Administrasiyasının o vaxtkı rəhbəri Ramiz Mehdiyev də mətbuata açıqlamasında bunu təsdiqləmişdi. İddialara görə, bu mənada indi Baş Prokurorluq tərəfindən Tələt Əliyevə qarşı verilən korrupsiya ittihamı ilə bağlı qiyabi icraata başlanması fonunda Nazim İbrahimovun adının da gündəmə gəlməsi təəccüblü deyil.

Yada salaq ki, T.Əliyevdən sonra Ukraynadakı səfirliyimizə rəhbərlik edən Azər Xudiyevlə sələfi arasında 2018-ci ildə böyük ajiotaj yaradan qalmaqal yaranmışdı. Belə ki, Xudiyev Ukraynanın Baş Prokurorluğuna və Daxili İşlər Nazirliyinə şikayət göndərərək Tələt Əliyevi səfir olduğu dövrdə diplomatik nümayəndəliyin binasını təmir etdirərkən, böyük məbləğdə vəsaiti mənimsəməkdə ittiham etmişdi. Həmin müraciətdən sonra Kiyev Məhkəməsi Tələt Əliyevin mənzilində axtarış aparılması barədə qərar çıxarmışdı.

Sabiq səfir isə cavab olaraq bildirmişdi Azər Xudiyev diplomatik missiyasını unudub, Ukraynadakı Azərbaycan diasporasının nümayəndələrinə qarşı düşmənçilik edir, diaspor nümayəndələri ilə bağlı bu ölkənin hüquq-mühafizə orqanlarına şikayətlər yazır.

Həmin hadisələr baş verərkən N.İbrahimov hələ də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri idi. T.Əliyevin cavab açıqlamasında Ukraynadakı diasporamızla bağlı məqama işarə vurması belə bir fikrin yaranmasına səbəb olmuşdu ki, ola bilsin, Ukraynadakı sabiq səfirlə onun xələfi arasında korrupsiya motivli qalmaqal bu və ya digər dərəcədə Nazim İbrahimovla da bağlıdır.

Elə ona görə indi T.Əliyevlə bağlı qiyabi icraata başlanması fonunda sabiq komitə sədrinin adının da gündəmə gəlməsi təəccüblü deyil.

***Sənan Mirzə***

***2024-cü ildə "Bank Respublika"nın nağd vəsaitləri kəskin azalıb. İlin sonuna bankın nağd vəsaitləri 486 milyon 543 min manat təşkil edib. Halbuki, 2023-cü ilin müvafiq dövründə bu rəqəm 656 milyon 253 min manat təşkil edib. Bu da təxmini hesablamalarla 25,9% azdır. Yerli media yazır ki, bankın digər maliyyə institutlarındakı depozitləri də kəskin azalıb. 2023-cü ilin sonundakı 143 milyon 362 min manat 2025-ci ilin yanvarın 1-i tarixinə 67,2% azalaraq 47 milyon 141 min manata düşüb.***

kreditlərlə bağlı vəziyyəti də ürəkaçan deyil. Portfelin 39 milyon 607 min manatı nəzarət altındadır.

Digər məqam vaxtı keçmiş kreditlərlə bağlı bankın maliyyə hazırlığıdır. Bankda qeyri-standart 12 milyon 406 min manat kreditə qarşı 6 milyon 616 min manat məqsədli ehtiyat yaradılıb.

Ən nəhayət qurumun müştərilərə verdiyi 1 milyard 471 milyon manat kreditin 588 milyon 449 min manatı təminatsızdır. Bunun 360 milyon 184 min manatı biznes kreditlərinin payına düşür. Yəni biznes sektoruna ayrılan 1,013 milyard manat vəsaitin 360 milyon manatdan çoxu təminat-

72 milyon 709 min manatdan 86 milyon 73 min manata, qeyri-faiz xərcləri isə 105 milyon 647 min manatdan 121 milyon 675 min manata çatıb. Son bir ildə bankın ümumi və inzibati, əmək haqqı, amortizasiya xərcləri də artıb. Valyuta əməliyyatlarından (məzənnə dəyişməsi də daxil olmaqla) qazancı isə 1,32 milyon manat azalıb.

Beləliklə, "Bank Respublika"nın cəmi əməliyyat gəlirləri (faiz və qeyri-faiz gəlirləri) 276 milyon 408 min manat, cəmi əməliyyat xərcləri (faiz və qeyri-faiz xərcləri) 207 milyon 748 min manat olub. Gəlirlər xərcləri üstələdiyindən əməliyyat mənfə-

muş "Evergrande" şirkətinin fəliyyətini və müflis olma prosesinin işini araşdırdıqda onun auditini aparmış "PwC"nin ciddi pozuntulara yol verdiyini aşkarlamışdı.

Xatırladaq ki, bankın əsas səhmdarı Natiq Quliyevdir. Bu şəxs maliyyə qurumunda 63,62% səhmə malikdir. Bankdakı digər iki əsas səhmdar da Quliyev ailəsinin nümayəndələridir. Elçin Quliyev 18,46%, Namiq Quliyev 8,45% səhmə malikdir. Şakir Rəhimov 5,45%, SIDT 4,22% səhmə sahibdir.

Natiq Quliyev 1992-ci ildən etibarən "Bank Respublika" ASC-nin yaradıcısı, təsisçisi və

# Elman Rüstəmovun bankı ətrafında müəmma

## Sabiq baş bankir bu postu itirdikdən sonra onun biznesində də çöküş başlayıb? - İlginc rəqəmlər...

Hesabat ilində bank üstünlüyü əhalini borclandırmağa verib. Nəticədə kredit portfeli 2023-cü ildəki 1 milyard 174 milyon 229 min manatdan 25,3% artaraq 2024-cü ildə 1 milyard 471 milyon 886 min manata yüksəlib. Bunun 1 milyard manatdan çoxunu elə biznes kreditləri təşkil edib. İri kreditlərin bankın məcmu kapitalına nisbəti 35,30%-ə yüksəlib. Bu da kifayət qədər böyük rəqəmdir.

Bundan başqa, 2024-cü ildə bank 115 mindən çox kredit xətti açıb. Həmin kreditlərin də 1544-nün vaxtı keçib. Manatla ifadə etsək, təxminən 9 milyon 920 min 89 manatdan söhbət gedir. Bu məbləğin 5 milyon 332 min manatı Bakının payına düşüb. Maliyyə hesabatlarından belə aydın olur ki, kreditlərin 1 milyon 925 min manatı artıq illərdir gecikdirilmiş vəsait hesab edilir. Bunun da 1 milyon 212 min manatı biznes sektorunun payına düşüb.

Gecikmələr daha çox istehlak kreditlərindədir. Fiziki şəxslərə verilən 458 milyon 525 min manat kreditin 4 milyon 987 min manatının vaxtı keçib. Vaxtı keçmiş kreditlərin iqtisadi sektorlar üzrə bölgüsündə kənd təsərrüfatına verilən kreditlər mühüm paya malikdir. Fermerlərə verilən 371,8 milyon manat kreditin 1 milyon 536 min manatının vaxtı keçib. Ticarət müəssisələri üzrə bu rəqəm isə 1 milyon 750 min manatdır.

Beləliklə, bankın kredit portfelinin 6 milyon 917 min manatını qeyri-qənaətbəxş kreditlər, 1 milyon 202 min manatını təhlükəli, 4 milyon 285 min manatını isə ümidsiz kreditlər təşkil edir. Ümumilikdə, bankda qeyri-standart kreditlərin məbləği 12 milyon 406 min manata çatıb. Maliyyə qurumunun standart



sız verilib. Bu baxımdan istehlak kreditlərində vəziyyət daha kritikdir. Hesabat ilində bankın ayırdığı 312 milyon 266 min manat istehlak kreditinin 228 milyon 241 min manatının təminatı olmayıb.

Başqa bir maraqlı məqam: İllər üzrə bankda əhalinin yığımları daha da azalır. Depozitlərin həcmi 95 milyon 704 min manat və ya 6,6% azalaraq 2023-cü ilin 4-cü rübündəki 1 milyard 475 milyon manatdan 2024-cü ilin müvafiq dövründə 1 milyard 348 milyon manata düşüb. Azalma həm fiziki, həm də hüquqi şəxslərin əmanətlərində baş verib. Əmanətlərin böyük hissəsi tələblidir. Bankda 541 milyon 387 min manat tələbli depozit var. Bu da müvafiq müqaviləyə əsasən müştərinin ilk tələbi ilə əmanət məbləğinin tam və ya bir hissəsinin dərhal müştəriyə qaytarılması deməkdir. Belə əmanətlərin faiz dərəcələri də olduqca aşağıdır. İl ərzində bankın faiz gəlirləri ilə paralel faiz xərcləri kəskin artıb. Maliyyə qurumunun faiz xərcləri 2023-cü ilin sonundakı

əti 68 milyon 660 min manat təşkil edib. Bank əməliyyat mənfəətindən cəmi 3 milyon 222 min manatı mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlara ayırıb.

Nağd vəsaitləri azalan, o cümlədən depozit portfeli kiçilən "Bank Respublika" xarici borclanmasını da artırıb. Bankın kredit təşkilatları və digər maliyyə institutları qarşısında öhdəlikləri isə 114 milyon 210 min manat və ya 27,2% artaraq 534 milyon 529 min manata yüksəlib.

"Teleqraf.az"ın yazdığına görə, "Bank Respublika", bəlkə də, yeganə bankdır ki, rüblük və illik hesabatlarını cəmiyyətlə bölüşməkdə o qədər də maraqlı deyil. Bankın rəsmi veb saytında hesabat bölməsində bəzi illər üzrə 2 rübün hesabatı verilib. Halbuki maliyyə ili hələki ölkədə dörd rübdən ibarətdir. Bundan əlavə bankın maliyyə vəziyyəti kənar auditor kimi bir qayda olaraq "PwC" şirkəti tərəfindən qiymətləndirilir. Xatırladaq ki, 2024-cü ildə Çin hökuməti müflis ol-

sahibidir. Həmçinin o, "Səba" ASC, "Biləsuvar Aqro", "Qarabağ Taxıl" və "Bakı Sığorta" şirkətlərinin əsas səhmdarıdır.

Bankın, eləcə də yuxarıda adları çəkilən şirkətlərin qeyri-rəsmi sahibi olaraq isə Mərkəzi Bankın sabiq rəhbəri Elman Rüstəmov göstərilir. Yerli media bu barədə illərdir yazır, hərçənd N.Quliyev vaxtilə KİV-ə açıqlamasında sabiq baş bankir barədə xoş sözlər söyləyib onunla yaxın münasibətlərini gizlətməsə də, ortaqlıq məsələsini inkar etməyib. Bununla belə, ölkə mətbuatı Quliyevin hazırda Rüstəmovun biznesinin əsas idarəçisi olduğunda israrçıdır.

Digər tərəfdən Elman müəllim Mərkəzi Bankın rəhbərliyindən uzaqlaşdırılınca yaranan əsas suallardan biri onun sahibi olduğu biznesin gələcəyi ilə bağlı idi. Həm "Bank Respublika"nın ötən ilki göstəricilərinin ürəkaçan olmaması, həm də Rüstəmova məxsus olduğu deyilən digər şirkətlərdəki maliyyə çətinliklərinə dair iddialar belə düşünməyə əsas verir ki, sabiq baş bankirin AMB İdarə Heyətinin sədi postunu itirməsi öz sözünü deyir: Elman müəllimin biznes sarıdan işləri heç də qaydasında getmir. Təcrübədən bilirik ki, əksər sabiq iri məmurlar öz postlarını itirdikdən sonra onların biznes imperiyaları üzüaşağı getməyə başlayır, indi belə görünür eyni nümunəni Elman müəllim də yaşayır...

Xatırladaq ki, E.Rüstəmov 1995-2022-ci illərdə AMB İdarə Heyətinin sədri postunu tutub. O, səlahiyyət müddətinin bitməsinə 3 il qalmasına baxmayaraq həmin postdan kənarlaşdırılmışdı.

Sabiq baş bankir hazırda Baş nazirin müşaviridir.

***Toğrul Əliyev***



# Azərbaycanda reklamla bağlı yeni qaydalar müəyyən edilir

***Reklama dair ümumi tələblər dəyişir. Bu, Milli Məclisin iclasında müzakirə edilən "Reklam haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.***

Qüvvədə olan qanuna əsasən, istehsalı (satışı) lisenziyalaşdırılan, sertifikatlaşdırılan əmtəələr yalnız müvafiq təsdiqləyici sənədlər olduqda, reklam edilə bilər. Bu halda reklamda lisenziyanın və sertifikatın nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.

Layihəyə əsasən, istehsalının (satışının) lisenziyalaşdırılması, sertifikatlaşdırılması üçün məcburi tələb olan əmtəələr yalnız müvafiq təsdiqləyici sənədlər olduqda reklam edilə bilər. Bu halda reklamda lisenziyanın və (və ya) sertifikatın nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.

Reklam daşıyıcısının xüsusiyyətlərinə görə bu məlumatların göstərilməsi mümkün olmadıqda, müvafiq lisenziyanın və (və ya) sertifikatın olması barədə məlumat verilməli və reklam istehlakçısının müvafiq məlumatla tanış olması üçün şərait yaradılmalıdır. Reklam daşıyıcısının xüsusiyyətlərindən asılı olaraq reklam olunan əmtəə barədə ətraflı məlumatın verilməsi məqsədilə reklamda müvafiq keçidlərdən, eləcə də qısa nömrələrdən istifadə oluna bilər. Bu halda reklam olunan əmtəə barədə müvafiq keçidlərdən istifadə etməklə verilən məlumat reklamda istifadə olunan məlumata zidd olmamalı, onun tamlığına xələl gətirməməlidir. Reklamda əmtəə barədə verilən məlumatlar reklam istehlakçısı tərəfindən açıq və başa düşülən formada ifadə edilməlidir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Atmosferə atılan zərərli maddələrin həcmi azalıb

***Ötən il atmosferə atılan stasionar mənbələrdən və avtomobillərdən atmosfer havasına atılmış çirkləndirici maddələrin həcmi azalıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, 2024-cü ildə ölkədə stasionar mənbələrdən və avtomobillərdən atmosfer havasına atılmış çirkləndirici maddələrin həcmi 2023-cü illə müqayisədə 2,2 min ton azalaraq ümumilikdə 963 min ton təşkil etib:

"Onun da 88 faizi və ya 847,2 min tonu avtomobillərdən atılan tullantıların payına düşüb. Avtomobillərdən atılmış zərərli maddələrin həcmi 3,2 faiz artmış, stasionar mənbələrdən atılmış maddələrin həcmi isə 19,8 faiz azalıb. Stasionar mənbələrdən atılan zərərli tullantıların həcmi sənaye mərkəzlərindən olan Bakı şəhərində 14,4 min ton, Sumqayıt şəhərində 0,3 min ton, Mingəçevir şəhərində isə 0,2 min ton azalıb".

Məlumatda qeyd olunub ki, ötən il stasionar mənbələrdə yaranan zərərli maddələrin 74,4 faizi təmizləyici qurğular vasitəsilə zərərsizləşdirilib:

"Atmosferə atılan zərərli maddələrin miqdarının azaldılması üçün sənaye müəssisələrində texnoloji proseslərin təkmilləşdirilməsi və mövcud təmizləyici qurğuların səmərəliliyinin artırılması nəticəsində hava hövzəsinə il ərzində 11,7 min ton zərərli maddələrin atılmasının qarşısı alınıb. Bütün mənbələrdən atmosferə atılmış zərərli tullantıların 62,1 faizini karbon oksidi, 19,8 faizini karbohidrogenlər, 14,2 faizini azot oksidi, 0,1 faizini kükürd anhidridi, qalan hissəsini isə digər çirkləndirici maddələr təşkil edib".

# Mediasiya prosesi ilə bağlı qayda dəyişir

***Mediasiya prosesinin başlanması ilə qayda dəyişir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Mediasiya haqqında" Qanuna təklif olunan dəyişiklikdə öz əksini tapıb.

Layihəyə əsasən, mediasiya prosesi bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanıldığı, bu Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulmuş hallarda isə tərəflərin və ya onlardan birinin ilkin mediasiya sessiyasında iştirak etdiyi andan başlanmış sayılır.

Təklif olunan digər dəyişikliyə əsasən isə, tərəflər arasında mediasiyaya dair qeyd-şərtdə mediatorun (mediasiya təşkilatının) adı müəyyən edildiyi halda tərəf mediasiyaya dair qeyd-şərtdə nəzərdə tutulmuş mediatora (mediasiya təşkilatına) müraciət edəcək. Tərəflər arasında mediasiyaya dair qeyd-şərtdə mediatorun adı və ya mediasiya təşkilatı göstərilməyibsə və tərəflər öz aralarında bir tərəfin müraciəti üzrə 7 (yeddi) gün ərzində mediator ya da mediasiya təşkilatı barədə razılığa gələ bilmirsə, mediasiya prosesi tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə Mediasiya Şurası tərəfindən həmin şəhər və ya rayon üzrə müəyyən edilən və həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılacaq.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Qusar xəstəxanasında vətəndaşlara vaxtı keçmiş dərmanlar verilir?

***Qusar Rayon Mərkəzi Xəstəxanasında pasiyentlərə vaxtı keçmiş dərmanların verildiyi iddia edilir.***

"Unikal" xəbər verir ki, bu barədə "Şimal xəbərləri"nin baş redaktoru Müqəddəs Mehdiyev paylaşım edib.

O bildirib ki, xəstəxananın aptek bölməsinin əməkdaşı İ.Hacıyeva (onun həm də xəstəxana direktorunun həyat yoldaşı olduğu bildirilir) tibb işçilərinə vatsap nömrəsi vasitəsilə vaxtı keçmiş dərmanların xəstələrə verilməsinə dair tapşırıq verib.

M.Mehdiyev həkimlərin qrupundakı yazışmaları da paylaşıb və iddiaların reallığa söykəndiyini bildirib.

Qeyd edilib ki, yazışmanın kənara çıxmasından sonra İ.Hacıyevanın göstərişi ilə votsap qrupu bağlanıb: "Bəzi məlumatlara görə, Qusar Rayon Mərkəzi Xəstəxanasında ötən il 23 nəfər dünyasını dəyişib. Deyilənə görə, bu, rekord göstəricidir. Hazırda Qusar Rayon Prokurorluğunda xəstəxanadan edilən bəzi müraciətlər əsasında araşdırmalar aparılır. Ümid edirik ki, bu vatsap yazışması da ciddi şəkildə yoxlanılacaq və həqiqət üzə çıxacaq".

# Bu obyektlərin qeydiyyat xərcləri ləğv edilir

***Heyvanların identikləşdirilməsi (kodlaşdırılması) və heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı qaydası dəyişir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Baytarlıq haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Qüvvədə olan qanuna əsasən, heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır.



Layihəyə əsasən, Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) "Lisenziyalar və icazələr haqqında" qanuna uyğun olaraq təqdim etdiyi məlumatlar əsasında aparılacaq.

Qeyd edilib ki, qanun layihəsi heyvanlar üçün bioloji preparatlar istehsalının təşviqi məqsədilə hazırlanıb və həmin obyektlərin qeydiyyatı ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini və qeydiyyat xərclərinin ləğvini nəzərdə tutur. "Baytarlıq haqqında" qanunun 26.2-ci və 39.2.2-ci maddələrinə görə ölkə ərazisində heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydaya uyğun olaraq və mülkiyyətçilərin vəsaiti hesabına həyata keçirilir. Qanunun bu tələbinə uyğun olaraq Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 24 nömrəli Qərarı ilə müvafiq Qayda təsdiq edilib və qeydiyyatın Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulub. Həmçinin müəyyən edilib ki, obyektlərin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı ilə bağlı xərclər Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği"nə uyğun olaraq ərizəçinin vəsaiti hesabına maliyyələşdirilir.

Digər tərəfdən, baytarlıq preparatlarının istehsalı fəaliyyəti "Lisenziyalar və icazələr haqqında" qanuna əsasən lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısına daxil edilmişdir və heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı üçün ilkin olaraq lisenziya alınması tələb olunur. Lisenziyanın verilməsi üçün "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilmiş miqdarda dövlət rüsumu ödənilmədir.

Qeyd olunanlar göstərir ki, mövcud qanunvericilik bu sahədə fəaliyyət göstərmək istəyən sahibkarların həm lisenziya, həm də qeydiyyat prosedurundan keçməsini təsbit edir ki, bu da onların vəziyyətini ağırlaşdıran hal kimi müəyyən edilir.

Həmin mürəkkəbliyin aradan qaldırılması üçün müvafiq qanun layihəsi təklif olunub. Belə ki, layihəyə əsasən heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı ayrıca qaydalarla deyil, lisenziya verən orqanın (İqtisadiyyat Nazirliyinin) "Lisenziyalar və icazələr haqqında" qanuna uyğun olaraq təqdim etdiyi məlumatlar əsasında lisenziya verilmiş fəaliyyət növü üzrə müvafiq nəzarət orqanı (Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi) tərəfindən həyata keçiriləcək və qeydiyyatla bağlı yaranan xərclər ləğv ediləcək.

Məlumatların təqdim edilməsi "Lisenziyalar və icazələr haqqında" qanunda öz əksini tapır. Belə ki, lisenziya verən orqan (İqtisadiyyat Nazirliyi) verdiyi, dayandırdığı, bərpa və ya ləğv etdiyi lisenziyalar barədə məlumatı reyestrdə qeydə alındığı tarixdən 3 iş günü müddətində lisenziya verilmiş fəaliyyət növü üzrə müvafiq nəzarət orqanına (bioloji preparatların istehsalı fəaliyyətinə münasibətdə AQTA-ya) göndərir.

Beləliklə, qanun layihəsi heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların AQTA tərəfindən qeydiyyatının İqtisadiyyat Nazirliyinin "Lisenziyalar və icazələr haqqında" qnuna uyğun olaraq təqdim etdiyi məlumatlar əsasında həyata keçirilməsini və qeydiyyatla bağlı yaranan xərclərin ləğvini, bununla da bu sahədə fəaliyyət göstərən sahibkarların maliyyə yükünün azaldılmasını nəzərdə tutur.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Cəzaçəkmə müəssisələrində sıxlıq azaldılır

## Əlməmməd Nuriyev:" Umbakı və Lənkəran penitensiar müəssisələrinin istifadəyə verilməsi buna nümunədir"

***Azərbaycanda cəzaçəkmə müəssisələrində saxlanma şəraitinin beynəlxalq standartlara uyğun təmin edilməsi, məhkum və həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının qorunması istiqamətində qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilir. Dövlətimiz azadlıqdan məhrum edildiyi dövrdə belə məhkumların hüquqlarının qorunmasını təmin edir.***

Bu günlərdə Milli Məclisdə cəzaçəkmə müəssisələrində sıxlıq və məhkumlara tibbi xidmət məsələsi gündəmə gəlib. Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlara xərclənən müalicə vəsaitinin artırılması təklif edilib. Bunu Milli Məclisin plenar iclasında deputat Sahib Alıyev deyib. Deputat bildirib ki, cəzaçəkmə müəssisələrinin tibb müəssisələrində tibbi heyət üçün vakant yerlər, dərman, eləcə də digər ləvazimatlarla təminat onların sənəddə əksini tapan tutumlarına deyil, oradakı insanların saylarına uyğun gəlməlidir, yəni sıxlıq faktoru nəzərə alınmalıdır.

"Həbsxana və təcridxanalardakı sıxlığa, təkcə Lənkəranda olduğu kimi çağdaş penitensiar kompleksin istifadəyə verilməsi yolu ilə deyil, həm də cəza siyasətinin humanistləşdirilməsi, cinayətlərin dekriminallaşdırılması fəlsəfəsindən daha tez-tez çıxış etməklə son qoymaq olar", deyə deputat bildirib.

Onun sözlərinə görə, bu orada saxlanılanların sayı ilə yanaşı, onlara ayrılan xərclərin də azaldılmasıyla nəticələnər: "Bu yolla qənaət edilən vəsait isə məruzədə sözügedən müəssisələrdə saxlanılanların müayinə və müalicə ilə vaxtında təminlərində, problemlərin olduğu bu istiqamətdə xərclənə bilər".

Ədliyyə Nazirliyi yanında cəzaçəkmə müəssisələrinə ictimai nəzarəti həyata keçirən İctimai Komitənin üzvü Əlməmməd Nuriyev "Unikal" qəzetinə müsahibəsində bu təşəbbüsü dəstəklədiyini bildirib. O, son illər cəzaçəkmə müəssisələrində məhkumların saxlanılma şəraitinin yüksəldilməsi, bu müəssisələrdə sıxlığın azaldılması istiqamətində əhəmiyyətli işlərin görüldüyünü söyləyib.

"Yeni penitensiar müəssisələr inşa edilir, hazırda istifadədə olan müəssisələr də təmir edilir, məhkum və həbs edilmiş şəxslərin beynəlxalq sənədlərdə nəzərdə tutulmuş standartlara uyğun saxlanması üçün müvafiq şərait yaradılır.Ötən dövr ərzində qadın və yetkinlik yaşına çatmayan şəxslər üçün müasir



penitensiar müəssisələr, həmçinin Umbakı, Lənkəran penitensiar müəssisələri istifadəyə verilib. 2, 3, 6 və 7 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrində əsaslı təmir-tikinti işləri aparılıb. Qeyd olunan məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkumların qanunvericiliyə uyğun saxlanma şəraitinin təmin edilməsi məqsədilə müvafiq infrastruktur yaradılıb.Məhkumların insan ləyaqətinə hörməti təmin edən şəraitdə saxlanması, işgəncə və pis rəftar hallarının baş verməməsi məqsədilə penitensiar müəssisələrin fəaliyyətinə nəzarət gücləndirilib, müraciətlərin təqdim edilməsi imkanları genişləndirilib. İstər vətəndaşların, istərsə də təqsirləndirilən şəxslərin və məhkumların ünvanladıqları müraciətlərə çevik və operativ reaksiya vermək məqsədilə "889" Çağrı Mərkəzi fəaliyyətə başlayıb, sosial şəbəkələrdə Penitensiar xidmətin rəsmi səhifələri yaradılıb.

Gün ərzində istintaq təcridxanalarına və cəzaçəkmə müəssisələrinə yeni daxil olan şəxslərə onların hüquq və vəzifələri, qəbul edilmiş qərarlardan şikayət vermək imkanları izah edilir. Bütün bunlarla belə, cəzaçəkmə müəssisələrinin tibb məntəqələrində həkim çatışmazlığı var. Buna da səbəb Penitensiar Xidmətin nəzdindəki səhiyyə müəssisələrində əmək haqqının aşağı olmasıdır".

Ə. Nuriyev deyir ki, ümumilikdə Penitensiar Xidmətdə əmək haqqı çox aşağıdır. Onun sözlərinə görə, Penitensiar Xidmətdə və cəzaçəkmə müəssisələrindəki tibb müəssisələrində əmək haqqı 500-600 manat civarındadır. Buna görə də həkimlər cəzaçəkmə müəssisələrinin tibb məntəqələrində çalışmaq istəmir.

Komitə üzvü bildirib ki, həmin tibb məntəqələrində çalışanlar məhkumlarla eyni şəraitdə çalışır. Onlarla təmasda olur. Amma bunun qarşılığında aşağı əmək haqqı alırlar. Odur ki, həkimlər cəzaçəkmə müəssisələrindəki vakansiyalara müraciət etmirlər.

Müsahibimiz bildirir ki, həkimlərin cəzaçəkmə müəssisələrində çalışması üçün təşviqedici addımlar atılmalıdır. Bu müəssisələrdə çalışan tibbi personala bonuslar, daha yüksək əmək haqqı verilməlidir. Həmçinin

Penitensiar Xidmət Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və TƏBİB-lə birgə müzakirə aparıb gənc tibbi kadrlarla əməkdaşlıq məsələsini müzakirə etməlidir.

Həmsöhbətimiz bildirib ki, diabetli və ürək problemləri olan məhkumlar dərman və həkim çatışmazlığı olduqda vaxtında müalicə ala bilmir, onların səhhəti pisləşir, xəstəlikləri ağırlaşır. Onun sözlərinə görə, cəzaçəkmə müəssisələrinə yeni nəsil dərman və tibbi avadanlıqların gətirilməsi də vacib məsələdir:" Çünki xəstəlik nə qədər tez aşkarlanarsa, onun müalicəsi də bir o qədər tez və ucuz başa gələr. Bildiyim qədər bu istiqamətdə müəyyən addımlar atılır".

Ə. Nuriyev deyir ki, cəzaçəkmə müəssisələrində sıxlıq nə qədər az olarsa, məhkumların infeksion xəstəliklərə yoluxma faizi də bir o qədər aşağı olar:"Ona görə də, məhkumlar üçün yeni standartlara uyğun cəzaçəkmə müəssisələri tikilir. Yeni inşa olunmuş cəzaçəkmə müəssisələrində şərait yaxşıdır, havalandırma və sair məsələlər tikinti zamanı nəzərə alınıb. Köhnə cəzaçəkmə müəssisələrində isə sanitar qovşaqlar və ventilyasiya sistemi yenidən qurulur.

Cəzaçəkmə müəssisələrində vərəmə yoluxma 30 faiz, ölüm halları 50 faiz azalıb. Vərəmə qarşı yeni metodla məhkumların müalicəsi aparılır. Amma cəzaçəkmə müəssisələrində tibbi xidmətin səviyyəsinin daha da yüksəldilməsi vacibdir. Çünki məhkumların sağlamlığı, Penitensiar Xidmət əməkdaşlarının da sağlamlığı deməkdir. Onlar da məhkumlarla eyni şəraitdə xidmət göstərirlər.

Ə. Nuriyevin sözlərinə görə, cəzaçəkmə müəssisələrində sıxlığın azalması üçün digər istiqamətdə də işlər görülür.

"Əfv Komissiyası yeni əfvin verilməsi ilə bağlı məsələnin üzərində işləyir. Qarşıda prezident tərəfindən yeni əfv sərəncamının verilməsi gözlənilir. Həmçinin vaxtından əvvəl şərti azad etmə institutunun təkmilləşdirilməsi istiqamətində də iş aparılır. Bunun geniş miqyaslı tətbiqi üçün tədbirlər görülür. Eyni zamanda məhkəmələr də həbsə alternativ cəzaların verilməsi ilə bağlı məsələni diqqətdə saxlamalıdırlar. Bu cəzaçəkmə müəssisələrinin yükünü və orada olan sıxlığı azalda bilər", deyə Ə. Nuriyev bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Qatarların sürətinə dair məhdudiyyətlər müəyyənləşdi

***Qatarlar sarı-qırmızı işıq göründükdə sürəti saatda 20 kilometrədək azaltmalı və qarşı istiqamətin birinci yol işıqforunun qarşısında dayanmalıdır.***

"Unikal" xəbər verir ki, bu, Nazirlər Kabinetinin təsdiqlədiyi "Dəmiryol nəqliyyatında qatarların hərəkətinə və manevr işinə dair Təlimat"ında əksini tapıb.

Təlimata əsasən, qatarı düzgün olmayan yolla lokomotiv işıqforu ilə idarə edərkən qatarın maşinisti və onun köməkçisi:

- lokomotiv işıqforunun yaşıl işığında infrastruktur sahibi və ya qeyri-ümumi istifadəli dəmir yolunun sahibi tərəfindən belə hallar üçün müəyyən edilmiş sürətlə hərəkət etməli;
- sarı işıqda saatda 50 kilometrdən çox olmayan sürətlə hərəkət etməli;
- sarı-qırmızı işıq göründükdə sürəti saatda 20 kilometrədək azaltmalı və qarşı istiqamətin birinci yol işıqforunun qarşısında dayanmalı;
- qatar sarı-qırmızı işıqda dayandıqdan sonra qatarın maşinisti irəlidəki blok-sahənin qatarla tutulu olduğunu gördükdə və ya bildikdə, blok-sahənin boşaldılmasını, sarı və ya yaşıl işığın görünməsini gözləməli və hərəkəti lokomotiv işıqforunun siqnalı ilə davam etdirməli;
- qatarın maşinisti irəlidəki blok-sahədə qatarın olduğunu bilmədikdə, dayanma və tormozların buraxılması vaxtı ərzində lokomotiv işıqforunda sarı və ya yaşıl işıq görünmədikdə, o, blok-sahənin sonunadək sonrakı hərəkət üçün manee ilə qarşılaşdıqda, qatarı dərhal dayandırmağa hazır olmaqla və xüsusi sayıqlıqla, saatda 20 kilometrdən çox olmayan sürətlə hərəkətə yenidən başlamalıdır. Belə hallarda blok sahə ilə hərəkət zamanı lokomotiv işıqforunun qırmızı işığı sarı-qırmızı işığa dəyişildikdə, qatarın maşinisti hərəkəti saatda 20 kilometrdən çox olmayan sürətlə hərəkəti davam etdirə, sarı və ya yaşıl işıq göründükdə isə sürəti saatda 40 kilometrədək artıra bilər;
- blok-sahənin sonunda lokomotiv işıqforunun sarı və ya yaşıl işığında bu siqnalları rəhbər tutaraq hərəkəti davam etdirməli, qırmızı işıq saxlanıldıqda və ya sarı-qırmızı işıq yandıqda qatarın maşinisti yenidən qatarı dayandırmalı və hərəkəti bu Təlimata uyğun olaraq davam etdirməli;
- lokomotiv işıqforunda icazəverici siqnalın yerinə qəflətən sarı-qırmızı, qırmızı və ya ağ işıq göründükdə və ya lokomotiv işıqforunda işıqlar söndükdə qatarın maşinisti sürəti saatda 20 kilometrədək azaltmalı və qatarı blok-sahənin sonuna və ya lokomotiv işıqforunda icazəverici siqnal görünənədək, sonrakı hərəkət üçün maneə ilə qarşılaşdıqda, qatarı dərhal dayandırmağa hazır olmaqla və xüsusi sayıqlıqla, həmin sürətlə idarə etməlidir. Blok-sahənin sonunda lokomotiv işıqforunda sarı-qırmızı, qırmızı və ya ağ işıq saxlanıldıqda və ya lokomotiv işıqforunda işıqlar yanmadıqda sonrakı hərəkət bu Təlimatın tələblərinə uyğun olaraq yerinə yetirilir.

11_27 IYUl-QARA.qxd 3/18/2025 10:38 PM Page 13



# "Şəhid övladlarının incəsənət akademiyası" layihəsinin bağlanış mərasimi keçirilib



***17 mart 2025-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirdiyi "Şəhid övladlarının incəsənət akademiyası" layihəsinin bağlanış mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdən əvvəl Beynəlxalq Muğam Mərkəzinin foyesində akademiyanın rəsm qrupunun üzvlərinin əl işlərindən ibarət sərgi təşkil edilib.

Akademiyanın bağlanış mərasimində rəsmi şəxslər, incəsənət xadimləri, şəhid ailələri və KİV nümayəndələri iştirak ediblər. Açılış nitqi ilə çıxış edən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə layihənin məqsədinin şəhid övladlarının incəsənət sahəsində inkişafına töhfə vermək olduğunu vurğulayıb: "Bu layihə şəhid övladlarının yaradıcılıq potensialını üzə çıxarmaq və onların cəmiyyətə inteqrasiyasına dəstək olmaq üçün nəzərdə tutulub."

Mədəniyyət nazirinin müavini Səadət Yusifova akademiyanın iştirakçılarının qazandığı bilik və bacarıqların onların gələcək inkişafına mühüm təsir göstərəcəyini qeyd edib.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Polkovnik-leytenant Rəşad Atakişiyevin həyat yoldaşı Könül Hüseynova layihənin emosional tərəflərinə toxunaraq deyib: "Bu akademiya təkcə incəsənət deyil, həm də şəhid övladlarının mənəvi dünyasına işıq salan bir təşəbbüsdür".

Çıxışlardan sonra layihənin gedişatını və nəticələrini əks etdirən videoçarx nümayiş olunub.

Rəsmi hissədən sonra tədbir Azərbaycanın tanınmış incəsənət xadimlərinin və akademiyanın musiqi qrupunun üzvlərinin ifalarından ibarət bədii hissə ilə davam edib. Azərbaycan Respublikasının Xalq Artisti Fidan Hacıyeva, həmçinin Əməkdar Artistlər Təyyar Bayramov, İlkin Əhmədov və Aqşin Abdullayevin akademiyanın üzvü olan şəhid övladları ilə duetləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tədbir zamanı həmçinin "Qəhrəman övladıyıq" xor qrupunun ifasında sözləri xalq şairi Vahid Əzizə, musiqisi isə Könül Hüseynovaya aid olan "Vətən övladları" mahnısının təqdimatı baş tutub.

Mərasimin sonunda akademiyanı uğurla bitirən şəhid övladlarının mükafatkandırma mərasimi keçirilib.

Qeyd edək ki, üç ay davam edən "Şəhid övladlarının incəsənət akademiyası" layihəsi çərçivəsində iştirakçılar Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində peşəkar təlimçilər - rəssam Nigar Şıxəliyeva və vokal müəllimi Reqina Məcidova tərəfindən keçirilən dərslərdə iştirak ediblər.

# Həbs edilən polkovnik-leytenanta qarşı əlavə ittihamlar sürüldü



***İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının İsmayıllı şəhər inzibati ərazi dairəsi üzrə sabiq nümayəndəsi Əlişir Süleymanovun cinayət işi ilə bağlı əlavə epizodlar ortaya çıxıb.***

"Unikal" xəbər verir ki, "qafqazinfo"nun əldə etdiyi məlumata görə, ilkin istintaqın yekununda onun təqsirləndiriləcəyi bütün ittihamlar dəqiqləşib.

Ə.Süleymanova qarşı daha əvvəlki təkrar və külli miqdarda rüşvət alma ittihamlarına əlavə olaraq, külli miqdarda mənimsəmə və ya israf etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı maddələri üzrə yeni ittihamlar irəli sürülüb.

Təqsiri məhkəmi istintaqı ilə sübuta yetirilərsə, Ə.Süleymanov 12 ilə kimi həbsə məhkum edilə bilər.

Qeyd edək ki, Azərbaycan ordusunun ehtiyatda olan polkovnik-leytenantı Ə.Süleymanov 6 ay əvvəl Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizi Baş İdarəsi tərəfindən həbs edilib.

# Polis Nərimanovda 22 qumbara aşkarladı

***Polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silahların əməliyyat yolu ilə aşkarlanması və könüllü təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, polis əməkdaşlarının keçirdikləri növbəti tədbirlər nəticəsində Binəqədi və Nərimanov rayonları ərazisində 22 qumbara, 1 tapança, 1 tüfəng, 1 patron darağı və 13 patron tapılaraq götürülüb. Həmçinin 48 yaşlı paytaxt sakini 1 avtomat silahı, 1 patron darağı və 4 patronu könüllü olaraq polisə təhvil verib.

Araşdırmalar aparılır.

# Qərbi Azərbaycan qaçqınlarına bu imtiyazlar verilə bilər - SİYAHI



***Qərbi Azərbaycan qaçqınlarının hüquqları keçmiş məcburi köçkünlərin hüquqlarına bərabər tutula bilər.***

"Unikal" xəbər verir ki, bu, Nazirlər Kabinetinin 2024-cü il üzrə hesabatında əksini tapıb.

Qeyd edilib ki, Qərbi Azərbaycana qayıdış strategiyası nəzərə alınmaqla Qərbi Azərbaycan qaçqınlarının hüquqlarının keçmiş məcburi köçkünlərin hüquqlarına bərabər tutulması istiqamətində Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış təkliflər baxılması üçün aidiyyəti qurumlara təqdim edilib.

Bəs keçmiş məcburi köçkünlərin hüquqları və imtiyazları nələrdir?

Qanunvericiliyə əsasən, xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütamadi atəş altında saxlanması nəticəsində Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerlərini tərk etməyə məcbur olub ölkə hüdudlarında başqa yerə köçmüş şəxslər məcburi köçkün hesab olunurlar.

**Məcburi köçkünlərin imtiyazları**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamının 2-ci bəndinə əsasən, məcburi köçkünlərin 1992-1998-ci illərdə mülkiyyət formasından asılı olmayaraq müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması onlar öz doğma yurdlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədilə yeni qəsəbələrə və evlərə köçrülənədək dayandırılır;

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının 3-cü bəndinə əsasən, özəl müəssisələrin, ali və orta ixtisas təhsili məktəblərinin rəhbərlərinə tövsiyə olunmuşdur ki, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək etsinlər;

Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinətinin və kommunal xidmətlər üzrə güzəştlərin əvəzinə vahid aylıq müavinət verilir:

Sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlərə ayda 33 manat, digər yaşayış yerlərində yaşayan məcburi köçkünlərə isə ayda 60 manat olmaqla vahid aylıq müavinət ödənilir.

Eyni zamanda sıx məskunlaşma yerlərində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin istehlak etdikləri kommunal xidmət xərcləri (elektrik enerjisi, təbii qaz, su və məişət tullantılarının daşınması) dövlət tərəfindən ödənilir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli Sərəncamına əsasən, dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azaddırlar. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamına uyğun olaraq, 2011/2012-ci tədris ilindən etibarən dövlət ali təhsil müəssisələrinin bakalavr və magistratura təhsil səviyyələrinə yeni qəbul olunmuş və ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

- orta ümumtəhsil məktəblərində təhsil alan məcburi köçkün şagirdlər dərsliklərlə pulsuz təmin olunurlar;
- idarə, müəssisə və təşkilatlarda ştatların və işçilərin sayının ixtisarı zamanı işdə saxlanılmaq üçünüstünlük hüququna malikdirlər;

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş formalı pulsuz dərman reseptləri əsasında verilən dərman preparatlarının siyahısında göstərilən dərman preparatları ilə dövlət büdcəsi vəsaiti hesabına təmin edilirlər;

- pulsuz tibbi müayinə və müalicə ilə təmin olunurlar;
- şəxsiyyət vəsiqələrinin verilməsinə görə rüsumdan azaddırlar;
- məhkəmələrə iddia ərizəsi ilə müraciətə görə rüsumdan azaddırlar;
- şərti maliyyə vahidinin 55 misli miqdarınadək olan məbləğin gəlir vergisindən azaddırlar;
- mənzil və ya ev alqı-satqısı zamanı notarial rüsumlardan azaddırlar.

# Çernobıl əlillərinin sosial təminatı təkmilləşdirilir

***Çernobıl qəzasında zərər çəkənlərin mənzil təminatı təkmilləşdirilir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və ya bələdiyyə orqanı tərəfindən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındıqda, yaşayış sahəsi ilə təmin olunmaq hüququ verilir.



Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

11_27 IYUI-QARA.qxd 3/18/2025 10:38 PM Page 14



# Bələdiyyələr satdıqları torpaqlara qiymət müəyyən edə bilməyəcək

***Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin satışı, eləcə də hərraca və ya müsabiqəyə çıxarılan bələdiyyə mülkiyyətində olan torpaqların ilkin qiymətinin (qiymətinin) müəyyən olunması sahəsində səlahiyyətin tənzimlənməsi qaydası dəyişir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçiriln iclasında müzakirəyə çıxarılan Torpaq Məcəlləsinə təklif olunan dəyişiklikdə öz əksini tapıb.




Layihəyə əsasən, bələdiyyə mülkiyyətində olan torpaq sahələri fərdi yaşayış evinin tikintisi üçün bilavasitə satıldıqda qiymətlər, habelə hərraca və ya müsabiqəyə çıxarılan bələdiyyə mülkiyyətində olan torpaqların ilkin qiyməti (qiyməti) normativ qiymətdən az olmamaq şərtilə bazar məzənnələri nəzərə alınmaqla, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. Fərdi yaşayış evinin tikintisi üçün ayrılan torpağın hər 0,01 hektarının qiyməti şəhərlərin və rayon mərkəzlərinin müvafiq zonasında və ya müvafiq kadastr qiymət rayonuna daxil olan inzibati rayonda son torpaq hərracı və ya müsabiqəsi vasitəsilə satılan torpağın hər 0,01 hektarına görə ödənilən qiymətdən az ola bilməz.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin (ipoteka predmeti olan torpaq sahələri istisna olmaqla) hərrac və müsabiqə vasitəsilə satışında ilkin qiymət (müsabiqədə isə qiymət) bazar məzənnəsini nəzərə almaqla, mülkiyyətçi ilə satışın təşkilatçıları arasında razılaşma əsasında torpağın normativ qiymətindən az olmamaq şərti ilə müəyyən edilir.

Beləliklə təklif olunur ki, bu qiymətlər bilavasitə bələdiyyələr tərəfindən deyil, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilsin. Bununla bağlı Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda, eləcə də "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də müvafiq dəyişiklik edilir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Azad edilmiş ərazilər üzrə idxal üçün sənəd icazələr siyahısına daxil edilir

***Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı genişləndirilir.***

"Unikal"nın xəbərinə görə, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Lisenziyalar və icazələr haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənəd sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına daxil edilir.

Bu Qanun işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənədə münasibətdə 2023-cü il yanvarın 1-dən tətbiq edilməklə



2033-cü il yanvarın 1-dək qüvvədədir.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# FHN bayramla əlaqədar əhaliyə müraciət edib

***Fövqəladə Hallar Nazirliyi (FHN) İlaxır çərşənbə ilə əlaqədar yanğın təhlükəsizliyinə dair əhaliyə müraciət edib.***

Bu barədə "Unikal"a FHN-dən məlumat verilib. Müraciətdə qeyd olunub ki, xüsusi təntənəli qeyd olunan İlaxır çərşənbədə keçirilən mərasimlər, xüsusilə tonqalların qalanması zamanı yanğın təhlükəsizliyi qaydalarına əməl olunmaması isə sonda arzuolunmaz nəticələrə gətirib çıxara bilər:

Qeyd olunanları nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, İlaxır çərşənbə ilə bağlı mərasimlərdə aşağıdakı yanğın təhlükə-



sizliyi qaydalarına ciddi riayət etməyə çağırır:

- bayram tonqalı ev, avtomobil, elektrik naqili, ağac və digər yanar əşyalardan kənarda yandırılmalı;
- tonqalın ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalı;
- tonqal üzərindən atılarkən ehtiyatlı olmalı;
- tonqal tam sönənədək nəzarətdə saxlanılmalı;
- süfrələrdə yandırılan şamlar nəzarətsiz qalmamalıdır.

Həmçinin, nəzərə alınmalıdır ki, küləkli hava şəraitində tonqal yandırılması xüsusilə təhlükəli hesab olunur.

Yadda saxlayın: pirotexniki vasitələrdən istifadə qadağandır!

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!"

# Bu insanlar yaz depressiyasına daha çox məruz qalırlar

***Yuxu pozğunluğu, allergiyası olan və dəyişikliklərə həssas olan insanlar yaz depressiyasına ən çox məruz qalırlar.***

"Unikal" xəbər verir ki, rusiyalı psixoloq Yelena Mazankina yerli KİV-ə açıqlamasında deyib.

Mütəxəssis qeyd edib ki, əhval-ruhiyyənin yazda pisləşməsi "sadəcə keçici bir kədər deyil", insanın fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edən bir vəziyyətdir. O, bu fasilədə psixi problemlərin daha da pisləşə biləcəyini vurğulayır.

"Qışda işıq və havanın olmaması, oturaq həyat tərzi və vitamin ehtiyatlarının tükənməsi vitamin çatışmazlığına, orqanizmin müdafiə qabiliyyətinin azalmasına və apatiyaya səbəb olur. Bundan əlavə, vəziyyət atmosfer təzyiqinin dəyişməsi, temperaturun qəfil dəyişməsi və xroniki xəstəliklərin kəskinləşməsi ilə daha da ağırlaşır", - Mazankina izah edib. Onun sözlərinə görə, yaz depressiyasının simptomları - zəiflik, zəka geriliyi, unutqanlıq, səliqəsizlik, mənfi emosional əhval-ruhiyyə, həmçinin yuxusuzluq və iştahsızlıqdır.

***Gülayə Mecid***

# Ölkəyə PUA ilə narkotik daşıyanlar yaxalandı

***Azərbaycana pilotsuz uçuş aparatları ilə narkotik keçirən şəxslər saxlanılıb.***

"Unikal" DİN-in Mətbuat Xidmətinin Lənkəran regional qrupuna istinadən xəbər verir ki, Astara RPŞ-nin keçirdiyi tədbirlərlə qaçaqmalçılıq yolu ilə gətirilən külli miqdarda narkotik vasitənin realizə olunmasının qarşısı alınıb. Tədbirlərlə əvvəllər məhkum olunmuş 48 yaşlı İlqar Babayev və 46 yaşlı Asiman Əzimov saxlanılıblar. Onlardan 15 kiloqram marixuana aşkarlanıb.

Araşdırmalarla onların narkotikləri şəxsiyyəti araşdırılan İran vətəndaşından əldə etdikləri və maddi qazanc qarşılığında deyiləcək ünvanlara çatdırmağa razılaşdıqları müəyyən edilib.

Bundan əlavə, şöbə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında rayonun Səncərədi kəndi ərazisindəki örüş sahəsinə keçirdikləri baxış zamanı PUA-ya bərkidilmiş bağlamadan 10 kiloqram marixuana aşkarlanaraq götürülüb.

Faktlarla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

# 2024-ci ildə Yevlax şəhərində əmək bazarının vəziyyəti haqqında

***2024-cü ilin yanvar-noyabr aylarında məşğul əhalinin 12184 nəfəri muzdla işləyənlər təşkil edir.***

Muzdla işləyənlərin 1786 nəfəri və ya 14,7 faizi maddi istehsal sahələrində, 10398 nəfəri və ya 85,3 faizi xidmət sahələrində çalışırlar.Muzdla işləyənlərin 64,0 faizi dövlət sektorunda, 36,0 faizi isə qeyri-dövlət sektorunda çalışırlar.

Muzdla işləyənlərin 10,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 3,3 faizi sənaye sahəsində, 1,1 faizi tikinti sahəsində, 27,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 1,4 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində, 0,6 faizi informasiya və rabitə sahəsində, 1,2 faizi maliyyə və sığorta fəaliyyəti sahəsində, 0,5 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət sahəsində, 2,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində, 9,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində, 30,0 faizi təhsil sahəsində, 7,1 faiz əhaliyə səhiyyə və sosial xidmətinin göstərilməsi sahəsində, 4,6 faiz istirahət, əyləncə və incəsənət fəaliyyəti sahəsində, 0,2 faizi isə digər xidmətlərin göstərilməsi sahəsində olmuşdur.

2024-cü ilin yanvar-noyabr aylarında orta aylıq nominal əməkhaqqı 615,1 manat təşkil etmiş və 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 2,9 faiz çox olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Xalidə Quliyeva***

# Saray körpüsü açıldı

***Sumqayıt şəhərini Saray qəsəbəsi ilə birləşdirən körpüdə təmir işləri yekunlaşıb və körpü istismara verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Sumqayıt Şəhər İcra Hakimiyyətinin mətbuat katibi Eyvaz Qocayev sosial şəbəkə hesabında paylaşım edib. Yenidənqurmadan sonra körpüdə avtomobillər üçün 4 hərəkət zolağı ilə yanaşı, piyadaların da hərəkəti üçün şərait yaradılıb. Qeyd edək ki, uzunluğu 104 metr olan körpü üç aşırımdan ibarətdir. Körpünün ümumi eni 21.6 metrdir və iki gediş, iki dönüş olmaqla, 4 hərəkət zolağı var.

11_27 IYUI-QARA.qxd 3/18/2025 10:38 PM Page 15



## Ağ Ev Azadlıq heykəlini Fransaya qaytarmaqdan imtina etdi



***ABŞ hökuməti fransız siyasətçilərinin Azadlıq heykəlini geri qaytarmaq tələblərinə cavab verib.***

"Unikal" xəbər verir ki, bu barədə "Daily Mail" nəşri məlumat yayıb. Belə ki, fransızların təkidinə Ağ Evin mətbuat katibi Caroline Levitt sərt reaksiya verib. O, prezident Donald Trampın heç bir şəraitdə heykəli Fransaya qaytarmayacağını söyləyib.

Levitt həmçinin deyib ki, fransızların almanca danışa bilməməsi yalnız ABŞ sayəsindədir.

Bildirək ki, Azadlıq heykəli fransız Oqyust Bartoldi tərəfindən yaradılmış və 28 oktyabr 1886-cı ildə Amerika müstəqilliyinin yüzilliyi münasibətilə ABŞ-yə təqdim edilib.

***Gülayə Mecid***

## "Ukraynanın elit sərhəd dəstəsinin zabitləri Kurskdan qaçır" - TASS



***Bu yaxınlarda Sumı vilayətinə köçürülmüş Ukrayna sərhəd xidmətinin elit 7-ci dəstəsinin zabitləri Kursk vilayətinin sərhəd rayonlarından qaçırlar.***

"Unikal" xəbər verir ki, bu barədə TASS-a Rusiyanın təhlükəsizlik orqanları məlumat verib.

"Quevoda (Kursk vilayətinin Sudjanski rayonunun kəndi) komandanlığın əmri olmadan kiçik qruplar şəklində Ukrayna ərazisinə qaçmağa çalışan düşmən əsgərləri arasında çaxnaşma böyüyür. Nəinki zorla səfərbər edilmiş ukraynalılar öz mövqelərini tərk edirlər, həm də bu yaxınlarda Ukrayna sərhəd xidmətinin elit 7-ci dəstəsinin zabitləri də qaçırlar", - mənbə bildirib.

Qeyd olunub ki, Gevo bölgəsindəki meşəlik ərazilərdə şiddətli döyüşlər davam edir.

***Ağarza Elçinoğlu***

## Ərdoğan Trampla görüşə hazırlaşır - KİV

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ lideri Donald Trampla aprelin sonunda Ağ Evdə görüşməyi gözləyir.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı "Bloomberg" agentliyi Türkiyə rəsmilərinə istinadən yayıb. Nəşr bildirir ki, artıq görüşün təşkili üzərində iş gedir.

"Ərdoğan Ağ Evdə Donald Trampla aprelin sonunda baş tuta biləcək görüşün təşkili üzərində işləyir", - agentlik yazıb.

***Gülayə Mecid***

## "Bu, bütün regionun sabitliyi üçün əsas amildir" - Gürcüstan XİN



***Cənubi Qafqazda sülh və təhlükəsizlik bütün regionun sabitliyi üçün əsas amillərdir.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili bildirib.

Yeni Dehlidə keçirilən konfransda çıxış edən Boçorişvili Ermənistan və Azərbaycan arasında sülh sazişinin təkcə iki ölkə üçün deyil, bütün Cənubi Qafqaz üçün strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Onun sözlərinə görə, Gürcüstanın Ermənistan, Azərbaycan və Türkiyə ilə əməkdaşlığının gücləndirilməsi, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu və Cənub Qaz Dəhlizi kimi nəqliyyat və enerji layihələrinin inkişafı regionda uzunmüddətli sabitlik və rifah üçün zəmin yaradır.

***Ağarza Elçinoğlu***

## "Bu, Ermənistanın düşdüyü vəziyyəti çətinləşdirəcək" - Tarasov

***Xəbər verdiyimiz kimi, Rusiyanın "Russia Today" xəbər agentliyi dünən ABŞ Ordusunun Logistika Komandanlığının mümkün erməni-amerikan hərbi təlimləri üçün Almaniyanın Dülmen hərbi bazasından Ermənistandakı Çar poliqonuna hərbi texnika və müxtəlif növ texnika daşımağı planlaşdırdığı barədə məlumat yayıb.***



"Unikal" xəbər verir ki, nəqliyyat vasitələri, generatorlar, ixtisaslaşdırılmış konteynerlər də daxil olmaqla 151 ədəd texnikanın daşınması planlaşdırılır. ABŞ Müdafiə Nazirliyi hərbi texnikanın hərəkəti ilə bağlı şərh verməyib: "ABŞ Ermənistanla münasibətləri yüksək qiymətləndirir. Müdafiə Nazirliyi əməliyyat təhlükəsizliyi mülahizələrinə görə hərbi texnikanın hərəkətini şərh etmir".

Rusiyalı analitik Stanislav Tarasov sözügedən məlumatla bağlı açıqlamasında bildirib ki, bu məlumat təsdiqlənməlidir: "Çünki bu, İrəvanın vəziyyətini daha da çətinləşdirə bilər. İkincisi, ABŞ-nin Ermənistanla birgə hərbi təlimlər keçirməklə bağlı mümkün qərarı heç bir halda geosiyasi mülahizələrdən irəli gəlmir. Bu, Ermənistanın düşdüyü vəziyyəti çətinləşdirəcək, çünki sülh müqaviləsinin imzalanması perspektivi yoxdur.

ABŞ hazırda Ukrayna məsələsi ilə məşğuldur, bu hərbi təlimləri regionda ön plana çıxarmaq marjinal xarakter daşıyır, orada heç bir perspektiv yoxdur və Ermənistanın təhlükəsizliyi baxımından bu, Ermənistana problem yaradır, təhlükəsizliyi təmin etmir. Əslində, Ermənistan Qərblə muxtar işləyir, KTMT ilə praktiki olaraq rəqabət aparmır, Azərbaycanla problemi həll etməkdən praktiki olaraq geri çəkilib".

***Ağarza Elçinoğlu***

## İsrail buna görə Qəzzanı vurubmuş - Nazir açıqladı

***Fələstinin HƏMAS hərəkatının nümayəndələri hələ də həbsdə olan 59 girovu azad etməkdən imtina etdiyinə görə İsrail Müdafiə Qüvvələri (IDF) atəşkəsi pozaraq Qəzza zolağında əməliyyatları bərpa edib.***

"Unikal" xəbər verir ki, bunu "Times of Israel" qəzetinə müsahibəsi zamanı İsrailin müdafiə naziri İsrael Katz bildirib.

"Bu axşam biz HƏMAS-ın girovları azad etməkdən imtina etməsi və onun IDF əsgərlərinə və İsrail icmalarına zərər verməklə hədələməsi səbəbindən Qəzzada döyüşlərə qayıtdıq", - nazir bildirib.

Onun sözlərinə görə, İsrail Qəzza zolağında "cəhənnəmin qapılarını açacaq" və "heç vaxt görmədiyi" HƏMAS qüvvələrinə hücum edəcək.



Xatırladaq ki, İsrail atəşkəs razılaşmasını pozaraq Qəzza zolağına genişmiqyaslı hücuma keçib. Hücumları nəticəsində ən azı 236 nəfər həyatını itirib. Ölənlər arasında çox sayda uşaqların olduğu, yüzlərlə insanın yaralandığı bildirilib.

***Gülayə Mecid***

## İrəvan sülh sazişini imzalamaq üçün Bakıya çağırış etdi

***"Uzun müddətdir üzərində işlədiyimiz sülh sazişinin razılaşdırılmış mətni var və bu mətn ikitərəfli qaydada razılaşdırılıb. Üstəlik, Ermənistan tərəfi 12-ci raunddan sonra Azərbaycandan göndərilən təkliflərlə razılaşıb".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın hakim fraksiyasının katibi Artur Hovhannisyan deyib.



"Xüsusilə biz sivil dünya və beynəlxalq ictimaiyyətdən sazişlə bağlı kifayət qədər müsbət reaksiya gördüyümüz üçün növbəti mərhələyə keçməyə, imzalanmaya çağırışlar görürük. Biz həmçinin Azərbaycan tərəfini konstruktiv sahəyə qayıtmağa və sazişin imzalanması prosesini davam etdirməyə çağırırıq", - deyə deputat qeyd edib.

***Ağarza Elçinoğlu***

## "Sülh sazişinin bir çox elementi razılaşdırılıb" - Tramp

***Ukrayna üzrə sülh sazişinin bir çox elementi razılaşdırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə telefon danışığından əvvəl açıqlayıb.

"Səhər mən prezident Putinlə Ukraynadakı müharibə barədə danışacağam. Yekun razılaşmanın bir çox elementləri artıq razılaşdırılıb, lakin hələ görüləcək çox şey var. Minlərlə gənc əsgər və digərləri ölür. Hər həftə hər iki tərəfdən 2500 əsgər ölür və bu, dərhal dayandırılmalıdır. Prezidentlə danışmağı səbirsizliklə gözləyirəm", - deyə Tramp özünün "Truth" sosial şəbəkəsində yazıb.



***Ağarza Elçinoğlu***

11_27 IYUl-QARA.qxd 3/18/2025 10:39 PM Page 16



# Messidən zədəsi ilə bağlı açıqlama

***"İnter Mayami"nin hücumçusu Lionel Messinin zədələnməsi ilə bağlı açıqlamaya yayıb.***

"Unikal" xəbər verir ki, 37 yaşlı argentinalı "Atalanta Yunayted" ilə son MLS matçında sıradan çıxıb. Görüş Mayami təmsilçisinin qələbəsi ilə başa çatıb. Messi oyunda fərqlənib.

Həmçinin forvard milli komandasının DÇ-2026-nın seçmə mərhələsində Uruqvay və Braziliya ilə oyunları üçün heyətinə daxil edilməyib. Messi buna görə çox məyus olduğunu bildirib:

"Uruqvay və Braziliya ilə vacib oyunları buraxmalı olmağım utancvericidir. Çox istəyirdim ki, oynayım, amma kiçik zədəyə görə milliyə gedə bilməyəcəyəm. Hər bir argentinalı azarkeş kimi komandanı kənardan dəstəkləyəcəyəm. İrəli, Argentina!".



"İnter Mayami" də futbolçusunun durumu ilə bağlı bu məlumatı yayıb. Klub bunları qeyd edib:

"Messi əzələsinin vəziyyətinin qiymətləndirilməsi üçün MRT müayinəsindən keçdi. O, "Atalanta" ilə oyunda diskomfort hiss edib. Müayinənin nəticələri əlavəedici əzələdə yüngül zədənin olduğunu təsdiqlədi. Onun qarşıdakı oyunlarda iştirak edib-etməyəcəyini hələ bilmirik".

# "Millidən dəvət gözləyirdim" - Qismət Alıyev



***"Zirə"nin kapitanı Qismət Alıyev jurnalistlərə müsahibə verib. QOL.az müsahibəni təqdim edir***

***- Misli Premyer Liqasının 27-ci turunda "Sabah"la xalları yarı böldünüz. 1:1-lik heç-heçəni necə şərh edərdiniz?***

- Bilirdik ki, çətin oyun olacaq. Bəlkə də "Sabah" üçün çempionatda avrokuboklara yollanmaq baxımından son şans idi. İlk hissə çox ağır alındı. Heç cür öz oyunumuzu tapa bilmədik. Fasilədən sonra toparlandıq və lazımi qolu vurduq. Düşünürəm ki, heç-heçə hər iki komanda üçün sərfəli nəticədir.

***- İlk hissədə oyununuzu tapa bilməməyiniz nədən irəli gəlirdi?***

- Rəqibin təzyiqi çox idi. İstər oyun epizodlarında, istərsə də standart vəziyyətlərdə çox təhlükəli idilər. Fasilədən sonra komanda özünə gəldi. Ümid edirəm ki, bu, sonuncu olar. Bir daha belə oynamamalıyıq.

***- Matçın sonuna yaxın hiss olunurdu ki, "Zirə" heç-heçəyə razıdır. 1 xal sizi qane edirdi?***

- Oyunun gedişi elə heç-heçəyə layiq idi. Dediyim kimi, birinci hissədə onlar üstün oynadılar, fasilədən sonra isə biz.

***- Bu, ikinci yer uğrunda əsas rəqibiniz olan "Araz-Naxçıvan"ın bir gün əvvəl xal itirməsindən irəli gəlirdi?***

- Fikrimiz qələbə qazanmaq idi. Amma alınmadı. Səhvlərimizi analiz edib növbəti matçlara daha ciddi hazırlaşmalıyıq.

***- Gedişat onu göstərir ki, "Zirə" əmin addımlarla ikinci pilləyə doğru gedir...***

- Hələ qarşıda 1 dövrə var. Çempionat hazırda elə vəziyyətdədir ki, autsayder hesab edilən "Kəpəz" də "Qarabağ"dan xal alır. Heç bir rəqib oyunda asanlıqla qələbə qazanmaq mümkün deyil.

***- Kubokda mübarizəni dayandırmısınız. Bu məqam avrokuboklar baxımından "Zirə"nin əleyhinədir, yoxsa apreldəki sıx qrafiki nəzərə alsaq, lehinə?***

- Keçən il də bu cür sıx qrafikdə oynamışdıq. Lakin finala yüksəlmişdik. Finalda oynamaq hər bir komanda üçün qürurvericidir. Biz də yenidən final həyəcanı yaşamaq istəyirdik. Təəssüf ki, alınmadı. İndi əsas hədəfimiz ikinci yeri tutmaqdır.

***- Bu günlərdə milli komandamızın heyəti açıqlandı. Bir çoxları üçün sizin adınızın siyahıda yer almaması gözlənilməz oldu. Bəs sizin üçün?***

- Milli komandanın baş məşqçisinin seçimidir. Mənim işim meydandadır. Baş məşqçi çağırmayıbsa, yerimdə dayana bilmərəm. Yenə də əlimdən gələnin ən yaxşısını etməyə çalışacağam.

***- Yaxşı, onda sualı belə qoyaq. Nəzərə alsaq ki, "Zirə" son dövrlər əla formadadır, siz də komandanın kapitanısınız, bu halda milli komandanın baş məşqçisi Fernandu Santuşdan dəvət gözləyirdiniz?***

- Gözləməyinə, bəli, gözləyirdim. Çağırmayandan sonra fikir bildirmək düz olmaz. Bəlkə də daha əvvəl çağırılmayan futbolçuları yoxlamaq istəyir. İstənilən halda qərara hörmətlə yanaşıram.

# Van Deyk "Liverpul"dan gedir?



***"Liverpul"un müdafiəçisi Vircil Van Deyk klubdakı gələcəyi ilə bağlı sualı cavablandırıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, niderlandlı müdafiəçi mövsümün sonunda bitəcək müqaviləsini yeniləyib-yeniləməyəcəyi barədə sualın cavabında deyib:

"Mövsümün sonuna kimi hər şeyə aydınlıq gələcək. Əsas odur ki, mən tam olaraq öz işimə köklənmişəm. Klubu sevirəm və qarşıya qoyulan hədəflərə çatmaq üçün əlimdən gələni edəcəyəm. Ən əsas olan budur".

Qeyd edək ki, 34 yaşlı müdafiəçi 2018-ci ildən "Liverpul"da çıxış edir.

# "Real"ın yay planı məlum oldu

***"Real"ın qarşıdan gələn yay transfer pəncərəsi üçün planları müəyyənləşib.***

QOL.az xəbər verir ki, bu barədə "Relevo" məlumat yayıb.

Klub rəhbərliyi yayda yarımmüdafiə xəttini gücləndirmək istəyir.

Madrid təmsilçisinin xorvatiyalı mərkəz yarımmüdafiəçisi Luka Modriçin klubdakı gələcəyi hələlik bəlli deyil. Çünki futbolçunun "Real"la müqaviləsi bu ilin iyul ayına qədərdir.

"Real"ın skautlar şöbəsinin əsas vəzifəsi Modriçə əvəzləyici tapmaqdır.

Xatırladaq ki, Modriç 2012-ci ildən "Real"a oynayır. Bu mövsüm o, 44 matça çıxıb, burada 4 qol vurub və 7 məhsuldar ötürmə verib.

# "Atletiko Madrid"in sabiq kapitanı baş məşqçi təyin edildi

***İspaniyanın "Atletiko Madrid" komandasının sabiq kapitanı Qabi baş məşqçi təyin olunub.***

"Unikal" xəbər verir ki, 41 yaşlı mütəxəssis "Real Saraqosa" kollektivini çalışdıracaq. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Onunla mövsümün sonunadək müqavilə imzalanıb.

İspaniyalı veteran futbolçu bunadək "Xetafe"nin B komandasına rəhbərlik edib.

Sequndada mübarizə aparan "Real Saraqosa" 36 xalla 18-ci pillədə qərarlaşıb.

Qeyd edək ki, Qabi futbolçu kimi də "Real Saraqosa"da oynayıb.

# Qalmaqallı futbolçu İslam dinini qəbul etdi

***Niderland millisinin sabiq futbolçusu Kvinsi Promes İslam dinini qəbul edib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, 33 yaşlı hücumçu digər müsəlmanların onu qəbul etməsi üçün məsciddə kəlmeyi-şəhadət oxuyub.

Promes Niderlanda müxtəlif cinayətlərdə ittiham olunaraq ümumilikdə 7,5 il həbs cəzasına məhkum edilib. Daha sonra o, 2024-cü ilin fevral ayında Dubayda törətdiyi yol qəzasına görə həbs olunub. Oyunçu sərbəst buraxıldıqdan sonra Birləşmiş Ərəb Əmirliklərinin "Yunayted" klubu ilə müqavilə imzalayıb.

# Daha bir tanınmış futbolçu karyerasını bitirdi

***Fransa millisinin sabiq futbolçusu Kevin Qameyro karyerasını bitirib.***

Bu barədə 37 yaşlı hücumçu öz sosial şəbəkə hesabında paylaşım edib.

Qameyro PSJ ilə Fransa Liqa 1-də çempionluq yaşayıb. Son klubu "Strasburq" olan futbolçu Fransa millisində 13 oyunda 3 qol vurub. O, "Loryen", "Sevilya", "Atletiko" və "Valensiya"da da çıxış edib. Qameyro Avropa Liqasının 4 qat qalibi olub və 1 dəfə İspaniya kubokunu qazanıb.

# Fatih Terim ötən ayın ən yaxşı məşqçisi seçildi

***Səudiyyə Ərəbistanı "Əl-Şəbab"ını çalışdıran Fatih Terim ayın ən yaxşı baş məşqçisi seçilib.***

Onun komandası bu ay 3 matça çıxıb, 2 dəfə qalib gəlib, 1 dəfə uduzub.

"Əl-Şəbab" həmin oyunlarda 10 qol vurub, 2 qol buraxıb. Hazırda kollektiv turnir cədvəlində 43 xalla 6-cıdır.

Qeyd edək ki, Terim bu ilin yanvar ayından "Əl-Şəbab"ın baş məşqçisidir.